QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 147 (5867) **16 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Sosialyönümlü siyasət vətəndaş məmnunluğu yaradıb

*Prezident İlham Əliyev: "Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir"*



Səh 2

4

Rusiya Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycanda səfərdədir



6

660 min şəxsin pensiyası artıb



10

Manatın dövriyyəyə buraxılmasından 27 il ötür



# Sosialyönümlü siyasət vətəndaş məmnunluğu yaradıb

*Prezident İlham Əliyev: "Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir"*

**Son 16 ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurlu inkişaf yolu keçib, möhtəşəm nailiyyətlərə imza atıb. Ölkəmizin maliyyə imkanlarının güclənməsi regionların sosial-iqtisadi inkişafına, eləcə də, insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına səbəb olub. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır.**



Cari ilin ilk aylarından başlayaraq, davamlı olaraq, islahatların həyata keçirilməsi vətəndaşların rifahının daha da yüksəldilməsinin, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsinin daim dövlətin diqqət mərkəzində olduğunun əyani göstəricisidir. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar miqyasına görə heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə, qaçqın və məcburi köçkünlərə qayğı, minimum əməkhaqqının, minimum pensiyanın və sosial müavinətlərin artırılması istiqamətində görülən işlər, problemli kreditlərin həll olunması dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürüdür.

Məlumdur ki, bu il böyük sosial islahat paketləri qəbul edildi. Birinci paket 3 milyon insanı əhatə etdi. Bu sosial islahat paketi, artıq tam şəkildə icra olundu və həm pensiyaçılar,





həm də işləyən vətəndaşların əməkhaqları artırıldı. İkinci sosial paketlə sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqı 250 manata çatdırılacaq. Bütün bu və ya digər amillər vətəndaş məmnunluğuna səbəb olub. Təbii ki, Cənab Prezidentin qeyd etdiyi kimi, bundan sonra da bu istiqamətdə işlər aparılacaq, minimum əməkhaqqının, minimum pensiyanın artırılması gündəlikdə duran məsələlərdir.

### "BİZİM SİYASƏTİMİZ, DEMƏK OLAR Kİ, DOST MƏRKƏZLƏRİNDƏ ÖZ ƏKSİNİ TAPIR..."

Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləndirilməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb. Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, eyni zamanda, dövlət sosial xidmətləri sisteminin mütərəqqi beynəlxalq təcrübələrə və innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsi istiqamətində ardıcıl işlər aparılır. Təbii ki, vətəndaş məmnunluğunun təminindən söz açırıqsa, bir neçə ay əvvəl isə, DOST adlanan daha bir innovativ xidmət növünüdə qeyd etməliyik. DOST mərkəzləri vətəndaş məmnunluğuna tam təminat verir. Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan DOST mərkəzləri əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə xidmətlərdə vətəndaş məmnunluğuna tam təminat verir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz, məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".

### 2025-Cİ İLƏ QƏDƏR ÖLKƏ ƏRAZİSİNDƏ, ÜMUMİLİKDƏ, 31 DOST MƏRKƏZİ AÇILACAQ

DOST mərkəzi açıldıqdan sonra, iki aydan bir az artıq dövrdə 20 min vətəndaş bu mərkəzə müraciət edib. Bu günə olan məlumata görə vətəndaşların tam məmnunluq səviyyəsi 93 faizdən artıqdır. Artıq dövlət başçısının göstərişlərinə uyğun olaraq, ilin sonunadək növbəti mərkəzin açılması istiqamətində ciddi iş aparılır. Daha 3 mərkəzin açılması üçün işlər görülür. Bu, Bakının 80 faizini əhatə etmiş olacaq. Növbəti mərhələdə daha bir mərkəz açdıqdan sonra Bakı şəhəri tam əhatə olunacaq. Regionlarda da DOST mərkəzlərinin açılması sahəsində işə başlanılacaq. DOST mərkəzinin, DOST konsepsiyasının bir mexanizmi də elektron və onlayn xidmətlərin göstərilməsi məsələsidir. 2025-ci ilə kimi ölkə ərazisində, ümumilikdə, 31 DOST mərkəzi açılacaq. Bununla da, Azərbaycanın bütün ərazisi və bütün vətəndaşları DOST xidmətləri ilə əhatə olunacaq. Bu xidmətlərə ehtiyac duyan hər kəs ondan asanlıqla yararlana biləcək. "Sosial sahə bizim üçün prioritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir" deyən Cənab Prezident DOST Agentliyinin yaradılmasını bu istiqamətdə atılmış çox önəmli islahat olduğunu vurğulayıb: "Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi, əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir. Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan mədəniyyətinin sədası dünyaya yayılır

## Mehriban xanım Əliyeva: “Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı mədəni inteqrasiya Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biridir”

***Ümummilli Lider Heydər Əliyevin ideyalarının qorunması və davam etdirilməsində rolu olan Heydər Əliyev Fondunun məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan milli dəyərləri, tarixi və maddi mədəniyyəti dünyada, tanıdılır. Xalqların və millətlərin bir-birinə yaxınlaşmasına, ölkələr arasında mövcud olan əlaqələrin inkişafında çox vacib rol oynayır. Beynəlxalq aləmdə keçirilən sərgilər və Azərbaycan mədəniyyət günləri Şərqlə Qərb mədəniyyətlərinin qovuşmasında bir körpü rolunu oynayır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda Beynəlxalq Muğam Festivalı, Mstislav Rostropoviç adına Musiqi Festivalı, VI Beynəlxalq “Qız Qalası” İncəsənət Festivalı, İkinci Beynəlxalq Aşıq Festivalı, Üzeyir Hacıbəyli, Dmitri Şostakoviç, Bülbül kimi dahi bəstəkarlar və ifaçıların yubileylərinə həsr olunmuş beynəlxalq festivallar da Azərbaycanın real mənzərəsinin təbliğində önəmli rola malikdir.***

Mədəni əlaqələrin genişləndirilməsi, zəngin musiqi mədəniyyətimizin dünya ictimaiyyətinə çatdırılması, xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsi işinə xidmət edən Qəbələ Beynəlxalq Musiqi Festivalı da gözəl bir ənənəyə çevrilərək, beynəlxalq nüfuzunu ildən-ilə artırır. Dünyanın müxtəlif ölkələrinin musiqiçilərini Qafqaz Albaniyasının paytaxtı olan, zamanın, mədəniyyətin izini daş yaddaşına həkk edən Qəbələyə toplayır. Bu beynəlxalq musiqi festivalı ölkəmizdə multikultural dəyərlərə böyük önəm verildiyinin də bir göstəricisidir. Əsası Ulu Öndər Heydər Əliyevin adını daşıyan fond tərəfindən qoyulan bu festival əhəmiyyətinə görə, artıq dünyanın hər yerində tanınır. Festival təkcə mədəni əlaqələrin deyil, eyni zamanda, insanlar arasında dostluğun, qardaşlığın, dövlətlər arasında yüksək mədəni əlaqələrin yaranmasında çox böyük əhəmiyyət daşıyır. Bu gün Qəbələdə yenidən festival həyacanı yaşanılır. Mehriban xanım Əliyevanın XI Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçılarına ünvanladığı təbrik məktubunda vurğulandığı kimi, Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə, xalqlar arasında olan birliyin daha da gücləndirilməsinə səy göstərib: “Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı mədəni inteqrasiya Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biridir”. Beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan mədəniyyətlərarası dialoqun təşviqi üçün əsl qlobal platformaya çevrilmiş “Bakı Prosesi” çərçivəsində bu ilin aprelində V Dünya Mədəniyyətlərarası Dialoq Forumu ölkəmizdə uğurla sona çatdı. İyun ayında isə Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirildi. Məktubda qeyd olunur ki, sessiyanın keçirildiyi tarix bizim üçün əlamətdar hadisə ilə yadda qaldı - Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkidə yerləşən “Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi” UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi”.





### “BU TƏDBİRLƏR AZƏRBAYCANIN TƏMƏL PRİNSİPLƏRİNİN SÜLH VƏ HUMANİZM OLDUĞUNU BİR DAHA SÜBUT EDƏRƏK, DİLİNDƏN, DİNİNDƏN, ETNİK MƏNSUBİYYƏTİNDƏN ASILI OLMAYARAQ MÜXTƏLİF XALQLARIN NÜMAYƏNDƏLƏRİNİ BİR ARAYA TOPLAYIR”

Vurğulayaq ki, bu gün Qəbələdə keçirilən festival, eyni zamanda, dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə bağlı yubiley tədbirlərinin keçirildiyi bir dövrə təsadüf edir. Bu yubiley Azərbaycanın mədəni həyatında çox böyük hadisədir. Məktubda qeyd olunur ki, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2019-cu il ölkəmizdə “Nəsimi İli” elan edilib. Bu münasibətlə payız aylarında təşkil olunacaq Nəsimi - Şeir, İncəsənət və Mənəviyyat Festivalına dünyanın bir çox ölkəsindən yüzlərlə iştirakçının qatılacağı gözlənilir: “Bu tədbirlər Azərbaycanın təməl prinsiplərinin sülh və humanizm olduğunu bir daha sübut edərək, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrini bir araya toplayır. Bütün bunlar, sözsüz ki, xalqlararası mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran layihələrdir və mən də UNESKO-nun Xoşməramlı Səfiri kimi bu tədbirləri daim dəstəkləyirəm”.

### FESTİVAL İLDƏN-İLƏ BÖYÜYƏN TAMAŞAÇI AUDİTORİYASI VƏ AHƏNGDAR MUSİQİ KEYFİYYƏTİ İLƏ YADDA QALIR

Təbii ki, mədəniyyət bütün dövrlərdə xalqlararası ünsiyyətin başlıca vasitəsi olub və müasir dünyamızda da baş verən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dünya mədəniyyətlərinin qarşılıqlı münasibətləri mühüm əhəmiyyət kəsb edir.

Nüfuzu ildən-ilə artmaqda olan Qəbələ Beynəlxalq Musiqi Festivalı da mədəniyyətlərarası dialoqa böyük töhfə verən əhəmiyyətli bir tədbir kimi tanınmaqdadır. Hər zaman Qəbələ Beynəlxalq Musiqi Festivalına yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan bu gün də öz təcrübəsindən yararalanaraq, festivalı uğurla başa vuruacaqdır. Bu dəfə də gözəl təbiəti olan Qəbələdə klassik musiqi axşamları insanlarda xoş ovqat yaradacaq. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın himayəsi ilə keçirilən festivalda çox görkəmli ifaçıların iştirak etmələri mötəbər tədbirin əks-sədasını bütün dünyada çox geniş yayaraq, dünyanın mədəni həyatında əlamətdar hadisəyə çevirir. Festival ildən-ilə böyüyən tamaşaçı auditoriyası və ahəngdar musiqi keyfiyyəti ilə yadda qalır. Festivalın proqramına uyğun olaraq Qəbələ səhnəsində Azərbaycanın və dünyanın dahi bəstəkarlarının əsərləri səsləndirilir. Gənc ifaçılarla yanaşı, dünya şöhrətli musiqiçilər də səhnəyə çıxırlar. Füsunkar təbiəti ilə hər kəsi öz sehrinə salan Qəbələ daha bir musiqi festivalına ev sahibliyi edərək, tarixinə yeni səhifə yazır.

**Zümrüd BAYRAMOVA**

## “Azərbaycan və Rusiyanın dövlətlərarası əməkdaşlığı çoxəsrlik təməl üzərində təşəkkül tapıb”



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə məktub ünvanlayıb.

**Məktubda deyilir:**

“Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin inkişafı sahəsində fəaliyyətimə verdiyiniz yüksək qiymətə və Rusiya Federasiyasının ali fəxri mükafatına - “Dostluq” ordeninə görə Sizə səmimi qəlbdən təşəkkür edirəm. Ölkələrimiz arasında münasibətlər bir çox sahələri əhatə edir. Bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan və Rusiyanın dövlətlərarası əməkdaşlığı çoxəsrlik təməl üzərində təşəkkül tapıb. Azərbaycan və Rusiya öz münasibətlərini sülh, qarşılıqlı hörmət və mehriban qonşuluq əsasında qururlar. Bizim dostluğumuz və səmərəli tərəfdaşlığımız ölkələrimizin və xalqlarımızın maraqlarına tam cavab verir, regionda sülhə və sabitliyə xidmət edir. Hörmətli Vladimir Vladimiroviç, fəxri mükafata görə Sizə bir daha səmimi qəlbdən təşəkkür edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Rusiya xalqına firavanlıq, sülh və tərəqqi arzulayıram”.

# Azərbaycanda minimum pensiya, alıcılıq qabiliyyətinə görə, MDB-də birinci olacaq

## *Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" qanuna dəyişikliyi təsdiqləyib*





Məlum olduğu kimi, ötən gün Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" qanuna dəyişikliyi təsdiqləyib. Dəyişiklik əmək pensiyalarının minimum məbləğinin artırılması ilə bağlıdır. Sənədə əsasən, (əmək pensiyasının minimum məbləği) mətni yeni redaksiyada verilir. Sənədlə əmək pensiyasının minimum məbləği 2019-cu il 1 oktyabr tarixindən 200 manat məbləğində müəyyən olunur. Təyin edilən əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir. Bundan başqa, sığorta olunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən, indeksləşdirilir.

Həqiqətən də, Prezident İlham Əliyevin təşəbbüsü ilə iki böyük sosial islahat paketi qəbul edildi. Bu sosial islahat paketləri - birinci paket 3 milyon insanımızı əhatə etdi və ümumi illik maliyyə tələbi 1,6 milyard manata bərabər idi. Bu sosial islahat paketi, artıq tam şəkildə icra olundu və həm pensiyaçılarımızın, həm də işləyən vətəndaşlarımızın əməkhaqları artırıldı. İkinci sosial paketlə bağlı hazırlıq işləri artıq yekunlaşıb və sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışanlar əlavə 400 min insanın, kateqoriyalarından asılı olaraq, 20-50 faiz aralığında əməkhaqlarının artırılması, eyni zamanda, oktyabrın 1-dən etibarən 750 min pensiyaçının pensiyasının artırılması ilə bağlı bütün hazırlıq işləri artıq yekunlaşdırılıb. Ümumilikdə, hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard manatdır, növbəti il üçün 3 milyard manatdır və 4,2 milyon insanımızı əhatə edəcəkdir. Minimum əməkhaqqında, demək olar ki, iki dəfə artım, minimum pensiyada 72 faizlik artım nəticəsində, Azərbaycanda minimum pensiya MDB məkanında, alıcılıq qabiliyyəti üzrə birinci göstərici olacaqdır. Minimum əməkhaqqı isə yenə də alıcılıq qabiliyyəti üzrə, MDB məkanında ikinci göstərici olacaqdır. Prezident İlham Əliyevin tapşırığına əsasən, müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər, ümumilikdə, 1,3 milyon insanımızı əhatə etdi və bunlardan 300 mindən artığı, məhz əlilliyi olan şəxslər idi, 500 minə qədəri məcburi köçkün, 100 mindən artığı tələbə və gənclər idi. Ümumilikdə baxdıqda bu müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə etdi və onların gəlirləri çox əhəmiyyətli şəkildə artırıldı.

Azərbaycan Prezidenti İlham Əliyevin digər bir sosial təşəbbüsü olaraq, ötən ilin sonlarında qanunvericiliyə edilmiş dəyişiklik nəticəsində ölkəmizdə ciddi şəkildə sosial sığorta amnistiyası elan edildi və 2006-cı ildən 2018-ci ilədək sosial sığorta sahəsində cüzi ödəniş etmiş şəxslərə belə 25 il sığorta stajı tətbiq edildi. Bunun nəticəsində, yanvar ayının 1-dən etibarən avtomatik pensiya təyinatına başlanıldı. Avtomatik pensiya təyinatı bu gün, artıq 13 min insanı əhatə edir. Onlar hər hansı bir ünvana getmədən, hər hansı bir müraciət etmədən pensiya təyinatlarını ən səmərəli və sürətli şəkildə əldə ediblər. Bu siyasətin davamı olaraq, bu sahədə şəffaflığın və səmərəliliyin təmin edilməsi üçün il ərzində pensiyaya çıxan vətəndaşlarımızın 80 faizi əhatə olunacaqdır. Digər avtomatlaşdırma tədbirləri də davam etdiriləcəkdir. O cümlədən, müavinət və təqaüdlərin təyinatında avtomatlaşdırma tədbirləri bitdikdən sonra cari il üçün 180 min müraciətin tam şəkildə, praktik qaydada, vətəndaşların hər hansı bir ünvana getmələrinə ehtiyac olmadan təmin edilməsi həyata keçiriləcəkdir.

***RAMİL VƏLİBƏYOV***

## Rusiya Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycanda səfərdədir

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini Ruslan Salikovun rəhbərlik etdiyi nümayəndə heyətilə görüşüb. SİA-nın verdiyi məlumata görə, əvvəlcə qonaqlar ümummilli liderimiz Heydər Əliyevin Hərbi Dəniz Qüvvələri qərargahı qarşısında ucaldılan abidəsi önünə gül dəstələri qoyaraq öz ehtiramlarını ifadə ediblər.

Qonaqları salamlayan general-leytenant K.Vəliyev ölkələrimiz arasında əlaqələrin qurulmasında dövlət başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimad əsasında aparıldığını, bu əlaqələrin daim inkişaf etdiyini, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini qeyd edib. Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-leytenant K.Vəliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə olduğunu, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb. Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini R.Salikov da ölkələrimiz arasındakı əlaqələrin tarixi köklərə əsaslandığını, hər iki ölkənin strateji tərəfdaş olduğunu qeyd edərək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin inkişafı baxımından mühüm rol oynadığını bildirib. Sonda "Beynəlxalq Ordu Oyunları - 2019" yarışlarının əhəmiyyətindən danışan R.Salikov, ölkəmizin "Dəniz kuboku" müsabiqəsinə ev sahibliyi etdiyinə, tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.



## XİN : "Azərbaycanın Cəmmu və Kəşmir məsələsində mövqeyi ardıcıl xarakter daşıyır"



Azərbaycanın Cəmmu və Kəşmir məsələsində mövqeyi ardıcıl xarakter daşıyır. Bunu Xarici İşlər Nazirliyinin Mətbuat katibi Leyla Abdullayeva deyib.

XİN rəsmisi bildirib ki, Azərbaycan Cəmmu və Kəşmir məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq həllini dəstəkləyir: "Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Cəmmu və Kəşmir məsələsi üzrə Kontakt qrupun üzvüdür. Bu günlərdə İƏT-in Ciddədə mənzil qərargahında Cəmmu və Kəşmir üzrə Kontakt qrupun iclası keçirilib".

# 7 ayda əhaliyə 21,1 milyard manatlıq məhsul satılıb

***2019-cu ilin yanvar-iyul aylarında Azərbaycanda pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,9 faiz üstələyərək 21,1 milyard manata bərabər olub. SİA-nın məlumatına görə, ticarət dövriyyəsinin 10,6 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 10,5 milyard manatını qeyri-ərzaq məhsulları təşkil edib və satılmış məhsulların dəyəri 2018-ci ilin yanvar-iyul aylarına nisbətən real ifadədə müvafiq olaraq 2,5 faiz və 3,2 faiz artıb.***

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 45,4 faizi ərzaq məhsullarının, 4,8 faizi içkilər və tütün məmulatlarının, 17,9 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,0 faizi elektrik malları və mebellərin, 5,5 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,3 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunub. 2019-cu ilin yanvar-iyul aylarında istehlak məhsullarının dəyər ifadəsində 20,2 faizi ticarət müəssisələri, 49,3 faizi fərdi sahibkarlar tərəfindən, 30,5 faizi isə bazar və yarmarkalarda satılıb. 2018-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 27,5 faiz, fərdi sahibkarlar üzrə 0,1 faiz artıb, bazar və yarmarkalarda isə 5,1 faiz azalıb. Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 305,1 manat və ya 2018-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 12,4 manat çox olub. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 153,0 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 152,1 manatlıq qeyri-ərzaq məhsulları alıb.



“Aqrolizinq” mövsümdən əvvəl ammofos gübrəsinin satışına hazırdır

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti ammofos gübrəsinin Cəmiyyətin bütün regional nümayəndəliklərinin və rayon bölmələrinin logistik gübrə anbarlarında güzəştli şərtlərlə satışını həyata keçirir. Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ammofos gübrəsinin 1 tonunun satış qiyməti 1000 manata, dövlət tərəfindən tətbiq edilən 70 faiz güzəştlə 300 manata və müvafiq olaraq 50 kiloqramlıq 1 kisəsi 15 manata satılır. Kənd təsərrüfatı məhsulları istehsalçıları mülkiyyətində, istifadəsində və ya icarəsində olan torpaq sənədlərini, kənd icra nümayəndəliyindən əldə etdiyi ərizə və məlumat formasını, şəxsiyyət vəsiqəsinin surətini təqdim etməklə mineral gübrələri güzəştli şərtlərlə əldə edə bilərlər. Sentyabr ayından etibarən Cəmiyyətin rayon bölmələri ilə yanaşı, uzaq məsafələrdə yerləşən ucqar kəndlərdə mineral gübrələrin, xüsusilə mövsümə uyğun ammofos gübrəsinin səyyar satışı təşkil olunacaq. Səyyar satış zamanı fermerlərimiz müvafiq sənədləri təqdim etməklə və yerindəcə ödəniş etməklə öz kəndlərində güzəştli şərtlərlə mineral gübrələr ala biləcəklər. Qeyd edək ki, ammofos azot-fosfor qarışıqlı kompleks gübrədir, tərkibində 12 faiz azot və 52 faiz fosfor vardır. Əksər bitkilərdə əkindən öncə şum altına, səpinlə birgə və torpaqda fosfor çatışmazlığı olduğu halda yemləmə olaraq tətbiq edilir. Ammofos fosfor ağırlıqlı kompleks gübrə olduğuna görə ölkəmizdə əsasən payız aylarında dənli bitkilərin əkini zamanı və əkinqabağı şum altına verilir. Ammofos torpaqda münbitliyin artmasına və bunun sayəsində əkilən məhsulun keyfiyyətinin və məhsuldarlığın yüksəlməsinə, böyümənin və inkişafın normallaşdırılmasına kömək edir.

Cəmiyyət ötən illərdəki təcrübəyə əsaslanaraq, cari ildə də mövsüm başlamamışdan əvvəl ammofos gübrəsinin satışına tam hazırdır.

# 660 min şəxsin pensiyası artıb

Prezident İlham Əliyevin təsdiqlədiyi “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ilə ölkəmizdə əmək pensiyasının minumum məbləği 2019-cu il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, eyni zamanda, dövlət başçısı “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1650-VQD nömrəli Qanununun tətbiqi və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 14 avqust 2019-cu il tarixli Fərman imzalayıb. Prezident İlham Əliyevin cari ildə təqdim etdiyi və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların atılmasını təmin edən sosial islahatlar paketində pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, bu məqsədlə pensiya artımı xüsusi yer tutur. Belə ki, bundan əvvəl minimum pensiya 2019-cu il martın 1-dən 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmışdı və həmin artım




233 min vətəndaşı əhatə etmişdi. Yeni qanunla pensiyanın minimum məbləğinin 200 manata çatdırılması isə 660 min nəfər pensiyaçını əhatə edəcək.

Bununla da dövlət başçısının sosial islahatlar paketinin tərkib hissəsi kimi, ölkəmizdə əmək pensiyasının minimum məbləği bu il ərzində 72,4 faiz artırılmış olur. Digər tərəfdən, yeni məbləğlə ölkəmizdə minimum pensiya məbləğinin pensiyaçılar üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələməsi təmin edilir. Həmçinin minimum pensiyanın alıcılıq qabiliyyəti (PPP üzrə) baxımından Azərbaycan MDB-də ilk yeri tutmuş olur. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanunda əksini tapan digər tapşırığa uyğun olaraq, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdiriləcək. İndeksləşdirilmə həmin pensiya kapitallarının artımına imkan verəcək ki, bu da sığortaolunanların gələcəkdə yüksək pensiya məbləğləri ilə təminatı üçün mühüm önəm kəsb edir. Prezident İlham Əliyevin 18 iyun 2019-cu il tarixli Sərəncamları ilə dövlət qulluqçuları, hərbi qulluqçular, ədliyyə, hüquq mühafizə, fövqəladə hallar, miqrasiya orqanları əməkdaşları, xüsusi rütbəli şəxslər və b. əməkhaqlarının ciddi şəkildə artırılıb ki, bu da qanunvericiliyə əsasən xüsusi şərtlərlə pensiya təyin olunmuş 94 min nəfərin pensiyasının da gələn aydan orta hesabla 31 faiz artmasına səbəb olacaq. Həmin şəxslərin çalışdıqları sahələr üzrə əmək haqlarının artımı ilə əlaqədar qanunvericiliyə əsasən onların əmək pensiyaları da yenidən hesablanaraq artırılır. Beləliklə, dövlət başçısı tərəfindən cari ildə təqdim edilən ikinci sosial paket ümumilikdə 750 mindən çox vətəndaşın pensiyasının ciddi şəkildə artmasına imkan verib ki, bu da ümumən əhalinin sosial müdafiəsinin gücləndirilməsində daha bir mühüm bir addımdır.

# Xəzər İqtisadi Forumu mütəmadi qaydada keçiriləcək

Xəzər regionu beynəlxalq iqtisadi məkana fəal şəkildə inteqrasiya edəcək. Bu barədə Birinci Xəzər İqtisadi Forumunun yekunları ilə bağlı tədbirin sədrliyinin yaydığı bəyanatda bildirilib. Bəyanatda qeyd olunur ki, forum çərçivəsində bir sıra beynəlxalq tədbirlər keçirilib. Bu tədbirlərdə Azərbaycan, İran, Qazaxıstan, Rusiya Federasiyası və Türkmənistanın dövlət başçıları tərəfindən 2018-ci il avqustun 12-də Aktauda keçirilmiş Beşinci Xəzər Sammitində imzalanmış Konvensiyanın əhəmiyyəti vurğulanıb. Həmin sənədin Xəzəryanı ölkələrin əməkdaşlığında yeni mərhələ açdığı da qeyd olunub. Həmçinin, Xəzəryanı ölkələrin BMT-nin strukturuna daxil olan təşkilatlarla əməkdaşlığının genişləndirilməsi də mühüm vəzifə kimi qarşıya qoyulub. Sənəddə Xəzər İqtisadi Forumunun Xəzəryanı ölkələrin sahilboyu şəhərlərində mütəmadi keçiriləcəyi də qeyd olunub. Xatırladılıb ki, avqustun 12-də Türkmənbaşı şəhərində keçirilmiş Birinci Xəzər İqtisadi Forumunda Xəzəryanı ölkələrin - Azərbaycanın Baş Naziri Novruz Məmmədov, Rusiyanın Baş Naziri Dmitri Medvedev, İran İslam Respublikasının Birinci vitse-prezidenti Eshaq Cahangiri, Qazaxıstanın Baş Naziri Askar Mamin, qonaq qismində isə Bolqarıstanın Baş Naziri Boyko Borisov və Özbəkistanın Baş Naziri Abdulla Aripovun başçılıq etdikləri nümayəndə heyətləri, o cümlədən Xəzər regionunun bank və biznes sektorunun nümayəndələri, tədqiqatçılar və iqtisadiyyatın inkişafı ilə məşğul olan şirkətlərin rəhbərləri iştirak ediblər.

# Əhalinin siyahıya alınması ilə bağlı müşavirə keçirilib

“2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli Fərmanının və “2019-cu ildə Azərbaycan Respublikasında





əhalinin siyahıyaalınmasının keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli qərarının icrası ilə əlaqədar olaraq Ədliyyə Nazirliyi Penitensiar Xidmətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar avqustun 15-də Penitensiar Xidmətin Baş idarəsinin və penitensiar müəssisələrin məsul əməkdaşlarının iştirakı ilə müşavirə keçirilib. Bu il oktyabrın 1-10-da keçirilməsi nəzərdə tutulan siyahıyaalınmada azadlıqdan məhrum edilmiş və həbs edilmiş şəxslərin iştirakının təmin edilməsi məqsədi ilə hazırlıq işləri görülüb, məsul əməkdaşlar təyin edilib, onlar treninq və tədbirlərdə iştirak edib və müvafiq təlimatlar verilib. Müşavirədə iştirak edən Dövlət Statistika Komitəsinin məsul əməkdaşları siyahıyaalınma prosesi və müəssisələrə paylanmış sorğu vərəqələrinin doldurulma qaydası barədə danışıb, müşavirə iştirakçılarının suallarını cavablandırıblar.

# Daşkəsəndə sakinlərin növbəti səyyar qəbulu keçirilib





***Dünən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev Prezident Administrasiyasının məsul işçisi Arif Novruzovla birgə Təzəkənd kəndində sakinlərin növbəti səyyar qəbulunu keçirib. Qəbulda rayon icra hakimiyyətinin məsul işçiləri, rayonun hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.***

Daşkəsən rayon icra hakimiyyətinin başçısı Ə.Abıyev çıxış edərək bildirib ki, ölkə rəhbərinin tapşırığına əsasən, keçirilən hər bir səyyar görüşdə olduğu kimi, bugünkü görüşün də əsas məqsədi kənd sakinlərini narahat edən məsələləri müəyyən etmək və onların həlli istiqamətində əməli işlər görməkdir: "Yerində həlli mümkün olan məsələlər operativ şəkildə həll ediləcək, ehtiyac gəldiyi halda isə, aidiyyəti üzrə baş idarə və nazirliklər qarşısında qaldırılacaqdır".

Ə.Abıyev bu gün ölkəmizin hər bir bölgəsinin günü-gündən inkişaf edərək, abadlaşdığını, yeniləşərək müasir görkəm aldığını bildirib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən çox uğurla aparılan siyasətin təməlində xalqa xidmət dayanır. Biz də öz işlərimizi həmin təməl prinsiplər üzərində quraraq uğurla həyata keçiririk. Bugünkü görüşümüz də bunun bariz nümunəsidir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə hazırlanmış Tədbirlər Planında Daşkəsən rayonu üçün də icrası nəzərdə tutulmuş məsələlər vardır. Belə ki, Gəncə-Daşkəsən avtomobil yolunun 27-ci kilometrliyindən başlayan Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun asfalt örtüyünün və körpülərin yenidən qurulması işləri davam etdirilir. Daşkəsən, Quşçu və Quşçu körpüsü qəsəbələrinin, Bayan kəndinin qazlaşdırılmasının, Qaraqullar, Xoşbulaq, Qabaqtəpə, Bayan kənd, Daşkəsən şəhər N. Nərimanov adına 3 nömrəli və S.Vurğun adına 4 nömrəli tam orta məktəblərin əsaslı təmirinin, Zinzahal və Çanaqçı kəndlərində modul tipli tam orta məktəblərin tikintisinin artıq hər birimiz şahidiyik və bu tikintilər davam etdirilir. Daşkəsən rayonunda 220 nəfər işsiz rayon sakinin işlə təmin olunmasına, sosial yardımların verilməsinə, rayonda aparılan abadlıq-quruculuq işlərinə görə ölkə başçısı İlham Əliyevə minnətdarlığımızı bildiririk. Sizlərin hər birini ölkə rəhbərimizin ətrafında həmişə olduğu kimi sıx birləşməyə, ölkəmizdəki əmin-amanlığı, sabitliyi qorumağa, müasir müstəqil Azərbaycanımızın daha da qüdrətlənməsi naminə Möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla həyata keçirdiyi işlərə hər zaman dəstək olmağa çağırıram".

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçisi Arif Novruzov çıxış edərək, Prezident İlham Əliyev tərəfindən qəbul edilən əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarların, o cümlədən, minimum əməkhaqlarının və pensiyaların, tələbələrin təqaüdlərinin, müharibə veteranlarına, şəhid ailələrinə verilən müavinətlərin əhəmiyyətli dərəcədə artırılması, bəzi çoxmənzilli binalarda mənzillərin sənədləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin xalqımız tərəfindən yüksək əhval-ruhiyyə ilə qarşılandığını vurğulayıb.

A.Novruzov qəbul olunan dövlət proqramlarının icrası nəticəsində bütün regionlarda həyata keçirilən abadlıq-quruculuq işləri barədə də geniş məlumat verib. Bildirib ki, kəndlərin sosial-iqtisadi inkişafı sahəsində davamlı tədbirlər həyata keçirilir. Belə ki, hətta ən ucqar dağ kəndlərinə müasir yolların çəkilməsi, yeni məktəb binalarının tikintisi, mərhələ-mərhələ qazlaşma işlərinin aparılması, elektrik, su təchizatının yaxşılaşdırılması sahəsində işlər davam etdirilir. Bütün bunlar əhaliyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Sonra vətəndaşlar dinlənilib. Görüş zamanı kənd sakinlərinin müxtəlif məsələlər barədə müraciətləri qeydə alınıb. Müraciətlər kənd yolunun asfaltlaşdırılması, qaz xəttinin çəkilməsi, mobil rabitənin keyfiyyətinin yaxşılaşdırılması və digər şəxsi məsələlərlə bağlı olub.

Ə.Abıyev müraciətlərdə qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlarını verib. Əksər müraciətlər yerində həll edilib.

Görüşdə çıxış edən kənd sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək, dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Gənc əsgərlər vətənə xidmət andı içiblər






***Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin və Binəqədi rayon təşkilatının fəalları Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Qoşunlarının "N" saylı hərbi hissəsində təntənəli andiçmə mərasimində iştirak ediblər.***

Andiçmə mərasimində Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin aparat rəhbəri Fərid Nəsibov, Gənclər Birliyinin koordinatoru Elmar Məmmədov, YAP Binəqədi rayon təşkilatının gənclər birliyinin sədr əvəzedicisi Anar Əliyev, sədr müavinləri Eldar Qurbanov, Cəmilə İsmayılova və digər fəal gənclər iştirak ediblər.

Andiçmə mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Dövlət bayrağı fəxri qaravulun müşayiəti ilə sıra meydanına gətirilmişdir. Bölüklər şəklində tribunanın önündə düzülən gənc əsgərlər Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarına şərəflə əməl edəcəklərinə and içmişlər. Mərasimdə çıxış edən valideynlər Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında Azərbaycan Silahlı Qüvvələrinin xüsusi rolu olduğunu vurğulayaraq, bu əlamətdar günün yaratdığı xoş ovqatla ən xoş arzularını dilə gətirmişlər. Qeyd edək ki, mərasimdə YAP Binəqədi rayon təşkilatının fəal üzvlərindən olan gənc əsgər Fəsli Nəbiyev, eləcə də, Nicat Şükürlü vətənə və dövlətə sədaqət andı içiblər.

Mərasim iştirakçıları qarşısında çıxış edən gənc əsgər Fəsli Nəbiyev bildirib ki, vətənimizə, xalqımıza layiqli əsgər olacaq, hərbi anda həmişə sadiq qalacaq və verilən tapşırıqları sözsüz yerinə yetirəcəklər, çünki vətəni qorumaq dövlət və milləti qorumaq, vətəni sevmək də dövlət və milləti sevməkdir. Həmçinin, mərasim iştirakçıları qarşısında çıxış edən gənc əsgər Nicat Şükürlü bildirdi ki, hərbi anda həmişə sadiq qalacaq və ölkəmizin daxili sabitliyinin təmin olunmasında müsəlləh əsgər olacaq, verilən tapşırıqları sözsüz yerinə yetirəcəklər.

Andiçmə mərasimi özfəaliyyət dərnəklərinin bayram konserti proqramı ilə davam etdirilmişdir.

*Zümrüd BAYRAMOVA*

# YAP Zərdab rayon təşkilatının yaranmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib



Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının qərargahında təşkilatınyaranmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzərək, Ümummilli Liderinxatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova açaraq, partiyanın yaranma tarixindən, çətin və şərəfli fəaliyyət yolundan söz açıb. P.Mahmudova Ulu Öndər Heydər Əliyevin YAP-ın II qurultayında söylədiyi "Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün, zamanın tələblərinə uyğun olaraq, zərurətdən yaranmış bir partiyadır. Biz partiyanı yaradarkən, heç də düşünmürdük ki, qısa bir müddətdən sonra hakimiyyətə gələcəyik. Baxmayaraq ki, ölkəmizdəki vəziyyət - sizin hamınıza məlum olan vəziyyət bizim hamımızı düşündürürdü. Ona görə də, bir tərəfdən, hesab edirik ki, partiyanı yaradaraq, biz xalqımıza müəyyən bir xidmət göstərə bilərik. İkinci tərəfdən də, sadəcə, ölkənin belə ağır vəziyyətində bir çox insanların ümidi, istəyi, nəhayət, bu partiyanın yaranmasına gətirib çıxardı" fikirlərinin partiyanın yaranma zərurətinə aydınlıq gətirməklə yanaşı, sonrakı dövrün əsas istiqamətlərinin müəyyənləşdirilməsinə bələdçilik etdiyini diqqətə çatdırdı.

R.Mahmudov onu da bildirib ki, rayon təşkilatı öz işini partiyanın Proqram və Nizamnaməsinin, partiya qurultaylarının tələbləri səviyyəsində qurmağa çalışır, rəhbər orqanların qərarlarının, tövsiyə və tapşırıqlarının dəqiq, vaxtında yerinə yetirilməsinə səy göstərir. Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatı ölkəmizdə keçirilən bütün siyasi tədbir və kampaniyalarda fəal iştirak edərək, bu işlərə daim öz layiqli töhfəsini vermişdir. 2019 -cu ilin dekabrında keçiriləcək bələdiyyə seçkilərində də rayon təşkilatı, təşkilatın seçki qərargahı, eləcə də, bütün partiya fəalları var gücünü və imkanlarını səfərbər edərək, seçki kampaniyasının demokratik, şəffaf və kütləvilik şəraitində keçirilməsinə nail olacaqlar.

YAP Zərdab rayon təşkilatı gənclər birliyinin sədri Rəmzi Şirinov, partiya fəalı Səliqə İsmayılova və digərləri çıxış edərək partiyanın yaranma tarixi, bugünki fəaliyyəti və gələcək perspektivlərindən söz açıblar. Çıxış edənlər əldə olunmuş uğurlarla kifayətlənməyərək, Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşməklə, Azərbaycanın parlaq gələcəyi üçün daha əzmlə çalışacaqlarını qarşıya məqsəd qoyduqlarını söyləyiblər.

Sonda partiya sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiya vəsiqələri, rayon təşkilatının fəal üzvlərinəFəxri Fərman və hədiyyələr təqdim edilib.

*ZÜMRÜD BAYRAMOVA*

# Bəxtiyar Vahabzadə dünyasının hikməti

***Azərbaycanın çağdaş poeziyasının fəlsəfi fikir tarixində özünəməxsus ideoloji bir xəttə malik müdrik şəxsiyyət, xalq şairi Bəxtiyar Vahabzadə əsrlər üçün əhəmiyyət kəsb edə biləcək əsərlərin müəllifi kimi yaddaşlarda iz salıb. Xalq şairi çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən, bu istiqamətdə müstəsna xidmətləri olan tanınmış sənətkarlardandır. Onu, haqlı olaraq, çağdaş milli şeirimizin klassiki adlandırırlar. Azərbaycan şeirinin son yarıməsrlik tarixi təkamül prosesini Bəxtiyar Vahabzadə yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil. Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ailəsilə birlikdə Bakıya köçən Bəxtiyar Vahabzadə burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. O, universitetin aspiranturasında saxlanılmış, "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.***



## ÇAĞDAŞ POEZİYAMIZDA MİLLİ HİSS, DİL, AZADLIQ VƏ VƏTƏN SEVGİSİ

Sənətkar keçdiyi ömür yolunun hər mərhələsində böyük amalların, məsləklərin gerçəkləşməsində ömrünü şam kimi əritdi. "Şam əgər yanmırsa, yaşamır demək" deyən şair bir ömrün keşməkeşli, əzablı yollarında yaşayarkən yanmağın kökünü həyat eşqində, vətənə bağlılıqda dərk edirdi. Qətiyyətlə deyə bilərik ki, Bəxtiyar Vahabzadə qələmə güc verdiyi zamandan ideoloji xəttini milli məfkurəsi, vətənə sevgisi, torpağa bağlılığı ilə birləşdirib bu komponentlərin əsasında dünyanın dərk edə biləcəyi əsərlərin müəllifi olur. Zamanın ona diqtə etdiyi mövzuları özündən kənarlaşdırıb, xalqın milli-mənəvi dəyərlərinin çərçivəsində vətəninə xidmət göstərmiş, uzun bir yaradıcılıq yolunda ana dilinin saflığı, vətəninin bütövlüyü uğrunda mübarizə aparmışdır. Onun şeirlərinin fəlsəfəsində böyük bir hikmət dayanır. Bu hikmət Nizami Gəncəvi poeziyasından, Füzuli lirikasından, Şəhriyar şeiriyyətinin dilindən gəlirdi. Yaxın Şərq və Azərbaycan ədəbiyyatını dərindən bilən filosofların fikir dünyasını mənimsəyib, ədəbi cərəyanların əxz etdiyi ideologiyanı öyrənən Bəxtiyar Vahabzadə zamanla baş-başa buraxdığı ruhi dünyasının axarında milyonlarla insanların birləşməsinə nail oldu ki, bu da, onun yaradıcılıq irsinə saysız insanların məhəbbət bəsləməsindən irəli gəlirdi. İctimai fəaliyyəti, onun ədəbi fəaliyyətinə heç də təsir göstərməmiş, hər iki tərəfdən, məhz Bəxtiyar Vahabzadə olduğunu sübut edə bilmiş, dövrün hadisələri və tələbləri çərçivəsində yaradıcılığında özünə qarşı münasibət oyada bilmişdir. Müdrik bir səsin altında onun Azərbaycana olan sonsuz sevgisi eşidilir. Bu sevgi hissinin belə aşıb-daşması, alovlanması ikiyə bölünmüş vətən torpağının harayından, Qarabağ faciəsindən irəli gəlirdi. Bəxtiyar Vahabzadənin ictimai fəaliyyəti də zəngin və təqdirəlayiq olmuşdur. Azərbaycan Ali Sovetinin və Milli Məclisinin deputatı seçilmiş Bəxtiyar Vahabzadə xalqımızın həyatının ən çətin və mürəkkəb anlarında baş verən taleyüklü hadisələrə münasibətdə əsl vətənpərvər ziyalı mövqeyini nümayiş etdirmişdir. 20 Yanvar faciəsi törədilən zaman Bəxtiyar Vahabzadə faciənin törənməsini aydınlaşdırmaq, onun siyasi qiymətini vermək üçün əqidə dostlarını bir araya toplayıb çıxış edərək, possovet məkanında, yaşadığımız dövr ərzində, sovet imperiyasına xidmət etmiş insanlara qarşı yürüdülən amansız siyasətin məğzini açmağa, onun hökmünün dərinliklərini xalqa təqdim etməyə cəhd etmişdir. Bəxtiyar Vahabzadə dövrünün şairi olsa da, zamanı qabaqlayan şəxsiyyətlər sırasındadır. Əqli düşüncəsini fəlsəfi görüşlərində əks etdirən şair 20 Yanvar faciəsinin, Qarabağ şəhidlərinin ağır və mübarizəli həyat yolunu, qaçqın-köçkün həyatı yaşayan insanların nisgil və kədərini poeziyasında əks etdirmişdir. Lirik ovqatlı şairin düşüncəsindən axıb gələn görüşlərin əsasında ilahi eşq dayanır. Bu eşq bəşəri və dünyəvi bir eşqdir.

## KÖKSÜNDƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ KÖK SALAN ŞAİR

Bəxtiyar Vahabzadə tədqiqatçı-alim kimi Azərbaycan elmi qarşısında xidmətlər göstərmişdir. Şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət həmişə dərin maraqla qarşılamışdır. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə Bəxtiyar Vahabzadə yaradıcılığının mühüm istiqamətlərindən birini təşkil edir. Xalqının gücü ilə yazıb-yaratmış Bəxtiyar Vahabzadə Azərbaycan dilinə qarşı soyuq münasibət gördüyü zaman qələmini bu istiqamətdə kökləyib, "Mənim ana dilim" şeirini yazaraq, bu şeirin arxasında bir şəxsiyyət kimi çıxış edib, ana dilinin qorunması, onun saflığının saxlanılması üçün bütün insanları - azərbaycanlıları anasına hörmət etdiyi tək, ana dilinə də belə məhəbbət və ehtiramla yanaşmağa səsləyirdi. Müasir Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan Bəxtiyar Vahabzadə öz yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində mühüm rol oynamışdır. Böyük söz ustası xalqımızın yüzillər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə altmış ildən artıq bir müddət ərzində yorulmadan yazıb-yaratmışdır. O, azərbaycançılıq məfkurəsi ilə dərindən bağlı olan və milli özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermişdir. Azərbaycan xalqının tarixinin qədim dövrlərdən bəri müxtəlif mərhələlərində baş vermiş hadisələr və, böyük şəxsiyyətlərin parlaq simaları ustad sənətkarın diqqət mərkəzində dayanırdı. Onun hələ ötən əsrin 60-cı illərinin əvvəllərində qələmə aldığı "Gülüstan" poemasının həyat və fəaliyyətinə çox böyük maneələr yaradacağını bildiyi halda, bu əsəri qələmə almışdır. Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə daim can atan, ömrü boyu müstəmləkə əleyhinə çıxış edən şair tarixi materiallara söykənib, milli qəhrəmanlıq ənənələrini yaşadan əsərlərlə mütəmadi çıxış etmişdir. Babəkin ölümü, ona qarşı olan xəyanət tarixi materiallar əsasında Bəxtiyar Vahabzadəyə tam dəqiqliyi ilə məlum olduğundan, o, Səhl Sumbat kimilərin vətən eşqi ilə yaşayan insanlara qarşı olan münasibətini, birmənalı qarşılayaraq, onlara qəti şəkildə etiraz və nifrətini bildirirdi.

## ƏDƏBİ FİKRİN GÖRKƏMLİ NÜMAYƏNDƏSİ

Azərbaycan ədəbiyyatının, bütövlükdə, XX əsr Azərbaycan ədəbi fikrinin görkəmli nümayəndəsi olan Bəxtiyar Vahabzadənin adı təkcə respublikamızda deyil, onun hüdudlarından çox-çox uzaqlarda tanınır. Şairin əsərləri - şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən, ingilis, fransız, alman, fars, polyak, ispan, macar, keçmiş sovetlər birliyi xalqlarının dillərinə tərcümə edilib. Bəxtiyar Vahabzadə respublikamızın hüdudlarından uzaqlarda ölkəmizi layiqincə təmsil edərək, milli mədəniyyətimizin təbliği və ədəbi irsimizin dünyada tanıdılması naminə qüvvə və bacarığını əsirgəməmişdir. O, 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi-publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Bəxtiyar Vahabzadənin tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu olmuşdur. Müasir həyatdakı ziddiyyətlərin, qarşıdurmaların və mənəvi sarsıntıların təsviri ilə yanaşı, yüksək, pak və ülvi hisslərin tərənnümü Vahabzadə dramaturgiyasında böyük məharətlə təcəssümünü tapmışdır. Onun pyesləri Azərbaycan və eləcə də, xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulmuş və müəllifinə geniş şöhrət gətirmişdir. Azərbaycan Akademik Dövlət Dram Teatrının səhnəsində onun "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri tamaşaya qoyulub. O, tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir. Azərbaycan poeziyasında vətəndaşlıq ruhunun güvvətlənməsində və sənətkarlıq imkanlarının genişlənməsində Bəxtiyar Vahabzadənin müstəsna xidmətləri vardır. Dilimizin poetik imkanlarından məharətlə bəhrələnən şair fəlsəfi məzmunlu lirikanın gözəl nümunələrini yaratmağa müvəffəq olmuşdur. Mənəvi ucalıq, dünya və zaman, təbiət və insan həyatının mənası haqqında düşüncələrlə zəngin poeziyası ədəbi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmışdır. Şairin dərin lirizmi ilə səciyyələnən sözlərinə çoxsaylı mahnılar bəstələnmişdir.

## TÜRK DÜNYASINA TÖHFƏLƏR VERƏN ZİYALI

Bədii, elmi-publisistik yaradıcılığını ictimai-siyasi fəaliyyətilə üzvi surətdə əlaqələndirən şair türk dünyasına töhfələr vermiş ziyalı olaraq salnamələrə izini saldı. Bu fikirlərin hər biri onun xalqına, türk dünyasına olan sevgisinin aliliyindən irəli gəlir. Bəxtiyar Vahabzadə istər şeirlərində, istərsə də dram əsərlərində və poemalarında bir vətəndaş mövqeyini ortaya qoyub, hadisələrə obyektiv münasibət bəsləyərək zamanın ixtiyarına verirdi. Məhz zamanla baş-başa qoyduğu fikir dünyasında insanlar onun kimliyini görə bildilər.

Bəxtiyar Vahabzadənin ədəbi-elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. 1974-cü ildə əməkdar incəsənət xadimi adına, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət Mükafatlarına layiq görülüb. 1985-ci ildə ona Azərbaycanın xalq şairi fəxri adı verilib, 1995-ci ildə Azərbaycan xalqının milli azadlıq mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilib. O, bir sıra orden və medallara, o cümlədən, Azərbaycan Respublikasının ali dövlət təltifi olan "İstiqlal" ordeninə layiq görülmüşdür.

Görkəmli şair, dramaturq və ədəbiyyatşünas, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, xalq şairi, əməkdar incəsənət xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor, Prezidentin fərdi təqaüdçüsü Bəxtiyar Vahabzadə ömrünün 84-cü ilində dünyasını dəyişib.

**ZÜMRÜD BAYRAMOVA**

# Leyla xanım Əliyevanın təşəbbüsü ilə reallaşan layihələrin miqyası geniş və əhatəlidir

## *Buzovna və Görədil qəsəbələrində növbəti ictimai çimərliklər yaradılaraq vətəndaşların istifadəsinə verilib*



***Müasir dünyamızı narahat edən məsələlər sırasında zəngin və fərqli ətraf mühitin-planetimizin qorunmasıdır. Beynəlxalq ictimaiyyət, siyasi və elmi dairələr ətraf mühitlə bağlı problemlərin həllində maraqlıdırlar. Dünyada yaşayan insanlar ekoloji problemlərə xüsusi önəm verərək, planetimizə görə məsuliyyət daşıyırlar. Bioloji müxtəlifliyin, həyatımızı sağlam, maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub-saxlanmasına dünya ictimaiyyəti töhfələrini verir.***

Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri, Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq kampaniyasının təsisçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr sırasında planetimiz üçün əhəmiyyətli olan amillər də diqqətdə saxlanılır. Leyla Əliyeva "Biz hamımız Planetimiz üçün məsuliyyət hiss etməliyik" deməklə ətraf mühitin mühafizəsi, planetimizin üzləşdiyi ekoloji təhlükənin aradan qaldırılmasının vacibliyini diqqətdə saxlayıb. İDEA-nın reallaşdırdığı layihələr sırasında "Daha yaşıl bir Azərbaycan üçün bizə kömək et!" devizi ilə ağacəkmə aksiyası çərçivəsində Eldar şamı, kiparis, Şərq çinarı və digər ağaclar əkilib. İDEA "Eko Ev" adlı layihəsi çərçivəsində isə enerji istehlakını azaldan, tullantıları utilizasiya edən və s. ekoloji amilləri nəzərə alan tədbirlər reallaşıb.

Layihələrinin çərçivəsini və miqyasını genişləndirən İDEA "ASAN xidmət" və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə "Hər kağızı bir yarpağa dəyişək" layihəsi uğurla reallaşıb. Leyla xanım Əliyevanın rəhbərlik etdiyi İDEA İctimai Birliyinin təşəbbüsü ilə reallaşan layihə çərçivəsində Bakı şəhərində fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərinin hər birində istifadə olunmuş kağız və kağız məhsullarının qəbulu aksiyası keçirilib.

### TƏMİZLİK AKSİYASININ KEÇİRİLMƏSİ DƏNİZ ƏTRAF MÜHİTİNİN MÜHAFİZƏSİ MƏQSƏDİ DAŞIYIR

Heydər Əliyev Fondunun vitse-prezidentinin təşəbbüsü ilə yerli və beynəlxalq tərəfdaşlarla birgə, mütəmadi olaraq, Azərbaycan və regionun su bioresurslarının qorunub-saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edilir. Bildiyimiz kimi, bu yaxınlarda çimərlik mövsümünün başlanması ilə əlaqədar olaraq, IDEA İctimai Birliyinin təşkilatçılığı ilə növbəti ənənəvi sahilyanı təmizlik aksiyası keçirildi. Novxanı çimərliyində təmizlik aksiyasının keçirilməsinin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir. "Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası Xəzər dənizi sahillərində gənclərin kütləvi iştirakı ilə baş tutan sayca 11-ci aksiya idi. Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları çimərlikdən 2 tona yaxın tullantı toplayıblar.

### "BİZİM HƏYƏT" LAYİHƏSİ














## ÇƏRÇİVƏSİNDƏ VƏTƏNDAŞLARIN RAHATLIĞI TƏMİN OLUNUR

Həyata keçirilən layihələr sırasında "Bizim həyət" layihəsini də qeyd etməliyik. Abadlaşdırılan məkanlarda əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınır, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirməsi və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini-futbol və basketbol meydançaları, müxtəlif idman qurğuları və s. salınır. Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılır, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunur, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılır. Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq ağac, gül kolları əkilir və yaşıllıq zolağı salınır. Həmçinin, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları quraşdırılır.

Leyla Əliyevanın təşəbbüsü ilə dənizkənarı ərazilərdə mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklərin yaradılmasına başlanıb. İlk olaraq, belə çimərlik Şıx çimərlik ərazisində dəniz kənarında 6 hektar sahədə yaradılıb. Əvvəllər baxımsız vəziyyətdə olan ərazi təmizlənərək abadlaşdırılıb və vətəndaşların istirahəti üçün bütün şərait yaradılıb. Dəniz kənarına uzanan yola asfalt çəkilib, 3500 kvadratmetr ərazidə avtomobil dayanacağı yaradılaraq asfaltlaşdırılıb. Burada 60 kölgəlik, 6 yerdə soyunub-geyinmə kabinaları, 2 yerdə duş, 2 yerdə 2 kabinalı sanitariya qovşağı, istirahətə gələn vətəndaşların nahar etmələri üçün 2 söhbətgah quraşdırılıb, futbol və voleybol meydançaları yaradılıb. Vətəndaşların istirahətlərinin təşkili üçün çimərlik ərazisinə kifayət qədər oturacaq və qamaqlar qoyulub, ərazi boyunca zibil konteynerləri quraşdırılıb.

## PAYTAXTIN DƏNİZKƏNARI ƏRAZİLƏRİNDƏ, ÜMUMİLİKDƏ, 7 YERDƏ İCTİMAİ ÇİMƏRLİK YARADILACAQ

Görülən işlər bura istirahət üçün üz tutan insanlar tərəfində böyük məmnunluqla qarşılanır. Ümumilikdə, paytaxtın dənizkənarı ərazilərində 7 yerdə belə çimərliklərin yaradılması nəzərdə tutulmuşdu. Artıq Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda daha iki ictimai çimərlik yaradıldı. Buzovna və Görədil qəsəbələrində də növbəti çimərliklər yaradılaraq, vətəndaşların istifadəsinə verilib. Əvvəllər baxımsız vəziyyətdə olan ərazilər təmizlənərək abadlaşdırılıb, burada tələbata uyğun sayda kölgəlik, soyunub-geyinmə kabinələri, duş, sanitariya qovşaqları, istirahətə gələn vətəndaşların nahar etmələri üçün söhbətgahlar quraşdırılıb, futbol və voleybol meydançaları yaradılıb, dəniz kənarına uzanan yola asfalt çəkilmiş, avtomobil dayanacağı yaradılıb və asfaltlaşdırılıb.

Vətəndaşların istirahətlərinin təşkili



üçün çimərliklərin ərazisinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazi boyunca zibil konteynerləri quraşdırılıb, əlavə işlər görülüb. Yaxın günlərdə daha 4 qəsəbədə də yeni ictimai çimərlik istifadəyə veriləcək. Ümumilikdə isə, paytaxtın dənizkənarı ərazilərində 7 yerdə belə çimərliklərin yaradılması nəzərdə tutulub.

Yaradılan ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyini lazımi səviyyədə saxlanılması üçün burada xidmət personalı fəaliyyət göstərəcək.

Paytaxt sakinləri və eləcə də şəhərimizin çoxsaylı qonaqlarının istək və arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq, birliyin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə, alternativ olaraq, ictimai çimərliklər yaradılır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqət artırılır

## *Görmə imkanları məhdud olan uşaqlar üçün sosial reabilitasiya mərkəzləri yaradılacaq*

***Ölkəmizdə uşaqların sağlam, firəvan yaşamalarına, onların hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, uşaq hüquqlarının qorunması, uşaqların sosial müdafiəsinin gücləndirilməsi, hərtərəfli qayğı ilə əhatə olunması istiqamətində genişmiqyaslı işlər görüldü. Uşaqların sağlamlıqlarının qorunması, müasir, sivil tələblərə cavab verən şəraitdə təhsil almaları istiqamətində mühüm tədbirlər həyata keçirildi.***




Azərbaycan Respublikası uşaq hüquqlarının təminatı ilə bağlı bir sıra beynəlxalq sazişlərə, o cümlədən, 1994-cü ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşuldu. Təbii ki, ölkəmizin bu Konvensiyaya qoşulması uşaq hüquqlarına yüksək mənəvi dəyər verərək, onların normal sosial-mənəvi ruhda layiqli insan kimi yetişməsi, bu yolda qarşıya çıxan problemlərin aradan qaldırılması, uşaqların ehtiyaclarının hərtərəfli təmin olunması istiqamətində addımların atıldığını bir daha təsdiq etdi. Həmçinin, uşaq hüquqlarının müdafiəsi ilə bağlı zəngin qanunvericilik bazası formalaşdı, Azərbaycan Respublikası Milli Məclisində uşaqların hüquqların qorunmasına dair mühüm qanunvericilik aktları da qəbul olundu. Bu mənada, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunların qəbulunu xüsusi qeyd etməliyik. Bu gün ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında bu istiqamətdə mühüm addımlar atılır və böyük işlər görülür. Azərbaycanda uşaqların xoşbəxt, firavan böyümələri üçün onlara yaradılmış şərait, dövlət qayğısı təqdirəlayiqdir. Uşaqların rifahının yüksəldilməsi, onların intellektual səviyyəsinin artırılması dövlət siyasətinin başlıca xüsusiyyətlərindən biridir.

Respublikamızda əlilliyi qarşısının alınması, əliliyin olan şəxslərin tibbi-sosial reabilitasiyası, onlara layiqli həyat şəraitinin yaradılması əsas strateji sənəd olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, eləcə də, müvafiq hüquqi-normativ sənədlərdə təsdiq olunub. "Əlilliyin, uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" qanun vasitəsilə bu sahədə dövlət siyasəti müəyyənləşdirilib.

Görülən işlərin davamı olaraq, bildiyimiz kimi, 1 iyun tarixində Azərbaycan Prezidenti İlham Əliyev "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin (günərzi, sosial reabilitasiya, psixoloji, surdoloji və digər dəstək xidmətləri) genişləndirilməsi məqsədilə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 5,0 (beş) milyon manat ayrıldı. Qeyd olunan Sərəncamdan irəli gələrək, görmə imkanları məhdud uşaqların sosial reabilitasiya imkanlarının genişləndirilməsinə şərait yaradılıb. Sərəncamın icrası işləri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişləri üzrə həmin kateqoriyadan olan uşaqlar üçün də 2 sosial reabilitasiya mərkəzinin yaradılması nəzərdə tutulub. Nazirlikdən aldığımız məlumata istinadən, bu mərkəzlər görmə imkanları məhdud olan uşaqların sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyasına şərait yaradılması yönündə müxtəlif formalarda işlər aparılır. Belə uşaqların mövcud potensiallarını, bacarıqlarını inkişaf etdirməklə, sərbəst yaşamaq imkanlarının artırılması, onlar üçün nəzərdə tutulan inklüziv təhsillərinin dəstəklənməsi və s. üçün sınanmış reabilitasiya metodlarından istifadə ediləcək.

Hazırda yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzi də fəaliyyət göstərir. Mərkəz həmin şəxslərin reabilitasiyası və abilitasiyası məqsədinə xidmət edir. Görmə imkanları məhdud şəxslərin reabilitasiya yönümlü sosial xidmətlərlə təminatı işləri aparılır. Belə layihələrdən biri kimi, görmə imkanları məhdud uşaqlara müxtəlif əsərləri kompyuter və telefon vasitəsilə dinləməyə imkan yaradan "Danışan kitab" saytı və saytın mobil tətbiqi istifadəyə verilib.

Göründüyü kimi, Azərbaycan hökuməti uşaqlar üçün bütün sahələrdə geniş imkanlar yaradıb. Uşaqların sağlam mühitdə tərbiyə edilməsi üçün zəruri şəraitin yaradılması, valideyn himayəsindən məhrum olan uşaqların dövlət qayğısı ilə təmin edilməsi və uşaqlara qarşı zorakılığın qarşısının alınması kimi məsələlər daim diqqət mərkəzindədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Manatın dövriyyəyə buraxılmasından 27 il ötür

***Azərbaycanın milli valyutası - manatın dövriyyəyə buraxılmasından 27 il ötür. Milli pul vahidi olan manat 1992-ci il avqustun 15-də tədavülə buraxılıb. Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib.***



Ölkədə pul tədavülünün yaradılmasının və təşkil edilməsinin əsası Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 11 fevral tarixli "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Fərmanı ilə Milli Bankın yaradılması və Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 15 iyul tarixli "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" Fərmanına müvafiq olaraq milli valyutanın dövriyyəyə buraxılması ilə qoyulub. Bununla əlaqədar olaraq, 1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əsginaslar, noyabrda 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrda 5 manatlıq əsginas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginaslar dövriyyəyə buraxılıb. Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib. Yeni dizaynla 1 və 10 manatlıq əsginaslar da həmin şirkətdə istehsal olunub. 1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində 1 manat : 10 rubl nisbətində rubllar ilə paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunub. Həmin dövrdə Mərkəzi Bank tərəfindən müstəqil pul siyasətinin yeridilməsinə şərait yaratmaq üçün manatın ölkə ərazisində yeganə ödəniş vasitəsi olmasının təsbit edilməsi zərurətə çevrilib. Bu baxımdan ümummilli lider Heydər Əliyevin 1993-cü il 11 dekabr tarixli "Azərbaycan Respublikası milli valyutasının respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" Fərmanı mühüm rol oynayıb. Bu fərmanla manatın dövriyyədə yeganə ödəniş vasitəsi olması təsbit edilib və Azərbaycanın rubl zonasından çıxması təmin olunub.

Milli Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması məqsədilə 1994-cü ildə 10 min manatlıq, 1996-cı ildə isə 50 min manatlıq əsginaslar çap etdirilərək dövriyyəyə buraxılıb. 1994-cü ildə Almaniyada "Giesecke & Devrient" şirkəti tərəfindən istehsal edilən 10 min manatlıq əsginasın üzərində "Şirvanşahlar" kompleksinin ümumi görünüşü, arxa tərəfində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə həm rəqəmlə, həm də söz ilə nominal verilib. İngiltərənin "De La Rue" şirkəti tərəfindən çap edilən 50 min manat dəyərində əsginaslar 1996-cı ildən dövriyyəyə buraxılıb və bu pul vahidinin üzərində orijinal üslubda Naxçıvanda olan memarlıq abidəsi - "Möminə Xatun türbəsi", arxa hissəsində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə nominalın dəyəri həm rəqəmlə, həm də sözlə verilib. 2001-ci ildə "De La Rue" şirkəti tərəfindən yeni dizaynla 1000 manat dəyərində əsginas buraxılıb. Bu əsginas Azərbaycanda neftin çıxarılması və istehsal edilməsinə həsr edilib. Əsginasın dizaynında ənənəvi çərçivələr və ornamentlər istifadə olunub. Ümumilikdə, Azərbaycan Respublikasının Milli Bankı tərəfindən ölkə iqtisadiyyatının nağd pula olan tələbatının ödənilməsi məqsədilə 1992-2005-ci illər ərzində 5 trilyon 238 milyard manat həcmində 692,5 milyon ədəd əsginas istehsal olunaraq dövriyyəyə buraxılıb. Köhnə nominallı pul nişanları 2006-cı ilin sonuna qədər tədavüldə olub və denominasiya çərçivəsində dövriyyədən geri yığılıb. Azərbaycan Respublikası Prezidenti tərəfindən 2005-ci il fevralın 7-də "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" Fərman imzalanıb. Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat (AZN) 5000 köhnə AZM-ə bərabər tutulub. AZM və AZN-in birgə 1 il ərzində - 2006-cı ildə dövriyyədə olub və yalnız 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edilib. Lakin AZM-lərin AZN-lərə dəyişdirilməsi prosesinə heç bir məhdudiyyət qoyulmayıb və hazırda da bu proses xırda həcmdə olsa da davam edir. Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əsginazlar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət olub. Yeni manatın dizaynı ilə bağı müsabiqənin qalibi Avstriyanın "OeBS" şirkətinin dizayneri, avronun müəllifi Robert Kalina olub. Yeni nəsil pul nişanlarının texniki parametrləri isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb. Ötən il mayın 23-də yeni 200 manatlıq pul nişanı təqdim olunub. Pul nişanının dizaynı hazırlanarkən müsabiqədə ABŞ şirkəti "Crane Currency" tərəfindən təqdim olunan dizayn qalib seçilib. Bu dizayna bir sıra şirkətlərin təqdim etdiyi mütərəqqi mühafizə sistemləri inteqrasiya edilməklə pul nişanı "Giesecke+Devrient" şirkətində istehsal olunub. 200 manatlıq kağız pul nişanının üzərində ölkəmizin, paytaxtımızın ən müasir simvollarından biri olan Heydər Əliyev Mərkəzinin əzəmətli təsviri, mərkəzin əsas eksteryer və interyerinin dizayn elementləri, milli xalça nümunələrinin elementləri, digər milli ornamentlər əks edilib. 13 il keçməsinə baxmayaraq, milli pul nişanlarımız estetik görünüşünə, konseptual mövzusuna, müasirliyinə görə öz aktuallığını qoruyur. Azərbaycan Mərkəzi Bankı nağd pul sferasında müasir çağırışları nəzərə alaraq pul nişanlarımızın mühafizə sistemlərinin müasirləşməsini daim diqqət mərkəzində saxlayır.

# Nə olar Allahım, bizə müxalifət yetir

*Şübhə yox ki, yazının başlığını oxuyan hər kəs dərhal zəmanəmizin söz, poeziya bahadırı Zəlimxan Yaqubun məşhur şeirini xatırladı. 1990-cı illərin əvvəlində yenicə müstəqilliyini əldə etmiş Azərbaycanda baş verənlərə seyrçi münasibət bəsləməyən şair qələmi ilə sanki yaradana üsyan edirdi. Allahdan millətə bir ağsaqqal, bir yiyə yetirməyi iddia edirdi. Bu, sadəcə, bir şairin qələmindən çıxan yanğılı söz yığını deyildi, həmin dövrdə Azərbaycanı, milləti sevən hər bir normal düşüncəli həmvətənimizin hayqırtısı idi ki, böyük şair onu poeziya dili ilə Ulu Tanrıya çatdırırdı. Yaradan xalqımızın yalvarış və dualarını qəbul edib millətə ağsaqqal, həm də dünya siyasətinin nəhənglərindən biri olan xilaskar düha göndərdi.*



Əslində, millətimizin düşəcəyi labirinti öncədən yaxşı bilən Ulu Tanrı, hələ illər öncə, bu xilaskar ağsaqqalı Azərbaycana göndərmək qərarını vermişdi. Kremlin məngənəsindən xilas edib Azərbaycana yetişməsini təmin edən, Azərbaycanda düşmən qüvvələrin təsirindən çıxa bilməyənlərin hücumlarından qoruyub, sonda xilaskarlıq missiyasını yerinə yetirmək üçün göndərdi. Və bu göndəriş milləti "ölüm-qalım" dilemmasından xilas etdi. İndi millətimiz gerçək müstəqil dövlətinə malikdi. Az bir zaman kəsiyində, məhz Tanrının göndərdiyi Ulu Öndərin memarı olduğu məmləkətimiz, çoxlarının yüz ildə qət edə bilmədiyi inkişaf yolunu 15-20 ildə reallaşdıra bildi. Ölkədə hər şey yolundadı, əksər ölkələrin həsrətində olduğu stabillik və bu stabilliyin verdiyi imkanlar nəticəsində, bütün sahələrdə tarixi uğurlar göz qabağındadı. Lakin bir sahədə inkişaf edə bilmirik ki, bilmirik. O da ibarətdi ölkədə normal, sivil, reallıqlara və gerçəkliklərə söykənən siyasi düşüncəyə malik müxalifətin formalaşa bilməməsindən. Bilirəm, bəziləri bu yerdə dodaqlarını büzəcəklər ki, müxalifətə nə gəlib? Bu qədər siyasi partiya var ölkədə, əksəriyyəti də sağ, sol və mərkəzçi müxalif siyasət yürüdür. Bu formal görüntünü mən də görürəm və anlayıram. Ancaq mən formal əl müxalifətini deyil, gerçək milli düşüncəli, dövlətini təmənnasız sevən, sadəcə, hakimiyyətə gəlmək uğrunda dəridən-qabıqdan çıxan. Müxalifliyidən siyasi biznes vasitəsi kimi istifadə edən deyil, xalqının və dövlətinin inkişafı naminə şəxsi mənafelərindən keçməyi bacaran, xalq və dövlətin inkişafı naminə hakimiyyətə gəlməyi sadəcə bir vasitə kimi qəbul edən müxalifəti nəzərdə tuturam ki, o da, min dəfə təəssüf ki, indiyə qədər yarana bilmir. Yarana bilərdi, əgər saçınısaqqalını, həm də ağlını müxaliflik yolunda ağardan, yorulub-usanmayan, həm də keçmişdə millətə vurduqları öldürücü zərbələrdən utanmayan bəzi əzəli-əbədi müxaliflər mane olmasaydılar. Qəribədir, yeni sağlam düşüncəli müxalif siyasi qüvvə meydana gələn kimi əlilər, ariflər, cəmillər, daha nə bilim kimlər (o qədərdilər ki, adamın adlarını sadalayıb qurtarmağa da səbri çatmır) necə hücum çəkirlərsə onun üzərinə, adam müxalifliyinə peşman olur. Sən demə, Azərbaycandakı bütün sağlam düşüncəli siyasi kəslərin hamısını hakimiyyət yaradır (?), həm də bunları zərərsizləşdirmək (???) üçün. Bununla özlərini cəmiyyətin gözünə dürtməyə çalışırlar, yəni biz o qədər güclü və iqtidar üçün o qədər təhlükəliyik ki, iqtidar işini-gücünü buraxıb, cəmiyyətə müxalifət istehsal edir. Bu gülünc, cəfəng düşüncələrinə özlərini inandıra bilmədikləri halda, zorla cəmiyyəti inandırmağa çalışırlar. Amma unudurlar ki, cəmiyyət 15-20 il əvvəlin cəmiyyəti deyil. İndi hər kəs ağı qaradan, yaxşını pisdən, haqlını haqsızdan seçməyi bacarır. Hər bir demokratik cəmiyyətdə müxalifətin olması vacibdir. Müəyyən mənada, hətta müxalifət demokratik cəmiyyətin atributlarındandır. Bir demokratik cəmiyyət kimi bizə də müxalifət gərəkdir və bu müxalifət cəmiyyətdəki qüsurların aradan qaldırılmasında, daha mükəmməl idarəetmənin formalaşmasında mühüm rol oynaya bilər. İqtidara düşmənçəsinə münasibət bəsləmək, əslində, ölkəsinə, dövlətinə, ən nəhayət, xalqına düşmən münasibət bəsləmək deməkdir. Çünki bu iqtidarı xalq seçib, məhz xalq bu iqtidara onu idarə etmək üçün mandat verib. Demək, müxalifət xalqın mandatına hörmətlə yanaşmalı, bu mandatı daşıyanlara düşməncəsinə yanaşmamalı, ona qüsurları göstərməli, əgər aradan qaldırmaq üçün yol bilirsə, o yolu da dostcasına deməlidir. Xülasə, gözləməkdən gözümüzün kökü saraldı. Belə bir müxalifətə bu ölkənin çox, həm də çox ehtiyacı var. Noolar, Allahım, bizə belə bir müxalifət yetir!

**Təhmasib Novruzov**

# Müasir dövrümüzdə təhsil islahatlarının ən mühüm mərhələsi yaşanılır

## *Bu il təhsil müəssisələrini bitirən məzunlardan 112-si qızıl, 67-si isə gümüş medala layiq görülüb*

***Müasir dövrümüzdə ölkə iqtisadiyyatının şaxələnməsi, hərtərəfli inkişafı təhsil infrastrukturunun əsaslı şəkildə yenilənməsinə, Azərbaycan təhsilinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına, şəffaflığın və obyektivliyin təmin olunmasına zəmin yaradıb. Hazırda təhsil bütün pillə və səviyyələr üzrə yenilənir.***



Təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində, davamlı olaraq, işlər görülür. Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb. Məhz bunun nəticəsidir ki, bu gün təhsilin keyfiyyəti inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldilib. Əminliklə vurğulayaq ki, son illərdə ölkədə təhsil müəssisələrinin inkişafı istiqamətində mühüm addımlar atılmış, müxtəlif şəhər və rayonlarda təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası istiqamətində uğurlu işlər görülmüşdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Sosial infrastrukturla bağlı, - bu da daim diqqət mərkəzində olan məsələdir, - bildirməliyəm ki, bu il 100-ə yaxın məktəb tikiləcək və ya əsaslı təmir ediləcək, o cümlədən, modul tipli məktəblər. Bunun da, çox böyük faydası var, xüsusilə, uzaq kəndlərdə. Bu məktəblər həm tez bir zamanda ərsəyə gəlir, həm də keyfiyyət baxımından, çox yüksək standartlara cavab verirlər. Beləliklə, hesab edirəm ki, biz qəzalı məktəblər problemini bu il, uzaqbaşı, gələn il həll edəcəyik. Yeni Azərbaycanda bir dənə də olsun qəzalı məktəb olmamalıdır. Bu istiqamətdə böyük işlər görülüb və görüləcək".

### MƏZUNLARIN QIZIL MEDALA LAYİQ GÖRÜLMƏSİ TƏHSİLİN KEYFİYYƏTİNDƏN, BU SAHƏYƏ AYRILAN DİQQƏT VƏ QAYĞIDAN QAYNAQLANIR

Təbii ki, təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, dövlət proqramları, islahatlar bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də, neft gəlirləri Azərbaycanda həm də təhsilin inkişafına yönəldilib.

Şübhəsiz ki, bütün bunlar təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib. Hər il məzunların qızıl medala layiq görülməsi, təbii ki, təhsilin keyfiyyətindən, bu sahəyə ayrılan diqqət və qayğıdan qaynaqlanır. "Təhsil haqqında" qanun qüvvəyə mindikdən sonra Nazirlər Kabinetinin müvafiq qərarı ilə ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunması qaydaları təsdiqləndi. Beləliklə, 2011-ci ildən etibarən məzunlara qızıl və gümüş medalların verilməsinə başlanıldı. 2011-2012-ci tədris ilində 53 şagird qızıl və gümüş medala layiq görüldü. Rekord göstərici isə 2012-2013-cü tədris ilində oldu. Həmin dərs ilində orta məktəbin 11-ci sinfini 248 nəfər qızıl və gümüş medalla bitirdi. Məzunların 238-i qızıl medala, 10-u isə gümüş medala layiq görüldü. 2014-2015-ci tədris ilinin yekunlarına görə, ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran 131 nəfəri qızıl, 21 nəfəri gümüş medalla təltif edildi. 2015-2016-cı tədris ilində 129 nəfər XI sinif məzunu qızıl medalla, 29 nəfər gümüş medalla təltif olundu. 2016-2017-ci illərdə XI siniflərin 154 nəfər məzunu qızıl medalla, 31 nəfər məzunu isə gümüş medalla təltif edildi. 2017-2018-ci dərs ilində məzunların 185-i qızıl, 38-i isə gümüş medala layiq görüldü. Bu il isə, 2018-2019-cu dərs ilində təhsil müəssisələrini bitirən məzunlardan 112-si qızıl, 67-si isə gümüş medala təltif olunub. Müasir standartlara cavab verən təhsil müəssisələrində yaradılmış şərait bu gün məktəblilərin beynəlxalq olimpiadalarda iştirakına, müxtəlif layihələrdə qalib kimi adının hallanmasına səbəb olub.

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Ümumiyyətlə, Azərbaycan təhsilini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün atılan addımlar, onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi çağırışı uğurla reallaşmaqdadır.

Bu yüksək göstəricilərin əldə edilməsi ölkəmizdə təhsilin inkişafına ayrılan diqqətdən və dünya standartlarına uyğun qurulmasından qaynaqlanır.

Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda Azərbaycan təhsilinə yönəlmiş diqqət, məhz bu sahədə zamanın tələblərini ödəyə biləcək ziyalıların yetişməsinə doğru uğurlu bir addımdır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycan multikulturalizmi modelinə xarici ölkələrdə maraq artır



***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsi uğurla davam etdirilir. Hazırda bu layihə çərçivəsində dünyanın 20 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni magistratura pilləsində tədris olunur. Bununla yanaşı, 2019-2020-ci tədris ilindən etibarən, ölkəmizin bütün universitetlərində və bütün ixtisaslar üzrə, "Azərbaycan multikulturalizmi" fənni, əsas fənn kimi tədris olunacaq. Artıq fənnin tədrisində xeyli müsbət təcrübə əldə olunub. Azərbaycan dili ilə yanaşı, ingilis dilində də nəşr olunan "Azərbaycan multikulturalizmi" dərsliyinin istifadəsi tədrisin keyfiyyətinin daha da yüksəlməsinə imkan yaradıb.***

Azərbaycanın multikulturalizm modeli ilə bağlı dərslər Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə xarici ölkə universitetləri arasında əldə edilən razılaşma əsasında keçirilir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzindən "Səs" qəzetinə verilən məlumata istinadən, dərslər üçün qeydiyyatdan keçən tələbələr arasında gələcəkdə ölkəmizdə təhsil almaq, iş qurmaq, həmçinin, öz universitetlərində Azərbaycanla bağlı fənn tədris etmək istəyən və bu məqsədlə mədəniyyətimiz, tariximiz, ədəbiyyatımız, habelə, multikultural vəziyyətlə bağlı biliklərə yiyələnmək istəyənlər çoxluq təşkil edirlər. Seçilən tələbələr həm də Azərbaycanda BBMM tərəfindən təşkil edilən Beynəlxalq Qış və Yay Multikulturalizm məktəblərində iştirak etmək üçün şans qazanırlar. Bu da, öz növbəsində, tələbələrə stimul verən amillərdən biridir.

Göründüyü kimi, Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq" təşəbbüsünün real həllini tapması məqsədilə aparılan ardıcıl və məqsədyönlü iş öz yüksək nəticəsini verməkdədir. Artıq xaricdə "Azərbaycan multikulturalizmi" fənninin tədrisi daha geniş coğrafiyanı əhatə etməklə bərabər, öz təsir dairəsi və gücünü də artırmaqdadır.

2019-2020-ci dərs ilindən etibarən "Azərbaycan multikulturalizmi"nin tədris olunduğu xarici universitetlər sırasına Braziliya Federal Universitetinin də (Universidade de Brasilia) adı əlavə olunacaq. Beləliklə də, Multikulturalizm Mərkəzi 21-ci xarici ölkə universitetində "Azərbaycan multikulturalizmi" fənninin tədrisini həyata keçirəcək. Artıq universitet rəhbərliyinin təklifi müsbət dəyərləndirilib və BBMM ilə Braziliya Federal Universiteti arasında qarşılıqlı anlaşma memorandumu bağlanıb. "Azərbaycan multikulturalizmi" fənnini Braziliya Federal Universitetinin professoru Leila Bijos tədris edəcək. Onu da, əlavə edək ki, Leila Bijos 2018-ci ilin yayında BBMM-də Azərbaycan multikulturalizmi ilə bağlı araşdırmalar aparıb. 3 ay müddətində aparılan tədqiqatlar Braziliyada "Azərbaycan multikulturalizmi" adlı kitab şəklinə nəşr olunub. Portuqal dilində işıq üzü görən kitabda tədqiqatçı Azərbaycan multikulturalizmi modelinin uğurundan, eləcə də, ölkəmizdəki multikultural və tolerant mühitdən ətraflı şəkildə bəhs edib.

Qeyd edək ki, BBMM bu günədək dünyanın bir çox ölkələrinin nüfuzlu ali məktəblərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisini həyata keçirsə də, Braziliya Federal Universiteti ilə Latın Amerikası ölkələrində bu sahədə ilk addımı atmış olacaq. Yeni dərs ilində Azərbaycanın Braziliyadakı səfirliyinin nümayəndələri, eləcə də, həmin ölkənin nüfuzlu elm xadimləri "Azərbaycan multikulturalizmi" fənninin ilk tədris günündə iştirak edəcəklər. BBMM-in hər il təşkil etdiyi Beynəlxalq Qış və Yay Multikulturalizm məktəblərinə Cənubi Amerika ölkələrindən qatılan gənclərin sayının artması, eləcə də, mərkəzlə Braziliya universitetləri arasındakı qarşılıqlı münasibətlərin uğurlu inkişafı nəticəsində, "Azərbaycan multikulturalizmi" fənninin nüfuzlu Rio-de-Janeyro Federal Universitetində də həyata keçirilməsi planlaşdırılır.

Bütün bunlar göstərir ki, Azərbaycan multikulturalizmi modelinə xarici ölkələrdə maraq günü-gündən artmaqdadır. Yaxın gələcəkdə, bu tədris layihəsinə yeni-yeni xarici ölkə universitetlərinin qoşulması mümkün olacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Ermənilər siyasətlərini dəyişirsə..."



"Ermənistanın xarici işlər naziri başqa nə deyə bilərdi? Durub ölkəsinin baş nazirinin sözlərini təkzib edəsi deyildi ki. Əslində o, Paşinyanın fikirlərini təkrarlamağa da bir az ehtiyat edib, deyib ki, bu siyasət davam edir". Bu fikirləri SİA-ya açıqlamasında "Atlas" araşdırmalar mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib. O bildirib ki, Azrbaycan tərəfi öz tədbirlərini görməli, siyasətimizdə korrektələr etməliyik: "Mən əvvəllər də dəfələrlə yazmışam ki, biz ya danışıqlardan imtina edək, ya da başqa vasitələri işə salaq... Çünki "Qarabağ Ermənistandır"sa, danışıqlara ehtiyac qalmır".

E.Şahinoğlu qeyd etdi ki, sentyabr ayında Paşinyanın ABŞ-a səfəri nəzərdə tutulub və orada erməni diasporu ilə görüş keçirib Xankəndidə səsləndirdiyi fikirləri müzakirə edəcək: "Paşinyan ABŞ-dakı erməni lobbisi qarşısında yenə də Xankəndidəki fikirlərini təkrarlasa və "Qarabağ Ermənistandır" desə, deməli, ermənilər öz siyasətlərini dəyişirlər. O halda biz də buna uyğun olaraq öz siyasətimizi formalaşdırmalıyıq".

# Dağlıq Qarabağın azərbaycanlı icmasından etiraz



Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Avstraliyanın bəzi rəsmilərinin ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz separatçı rejimin "üzvləri"nin səfəri və səfər çərçivəsində keçirilən görüşlə əlaqədar Avstraliya hökumətinə və qanunverici orqanına etiraz məktubu göndərib. İcmadan Trend-ə verilən məlumata görə, məktubda bildirilir ki, qondarma rejimin üzvlərinin Avstraliyaya səfər etməsi birbaşa Avstraliya hökumətinin rəsmi mövqeyinə ziddir:

"Avstraliya hökuməti Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini və bu mövqeyin dəyişməz olduğunu bəyan edib. Qeyd edirik ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağda etnik təmizləmə aparılıb və yüz minlərlə soydaşımızöz torpaqlarından didərgin düşüb. Bu gün erməni diasporu Avstraliyada qondarma rejimi təbliğ edir və işğalın nəticələrini legitimləşdirməyə çalışır. Belə bir məqamda qondarma rejimin "üzvləri"nə bəzi Avstraliya rəsmiləri tərəfindən "xoş münasibət" göstərilməsini biz, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq qəbuledilməz hesab edirik". Məktubu Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev, icmanın idarə heyətinin üzvləri Flora Qasımova, Asif Cahangirov, Elçin Əhmədov, Dürdanə Ağayeva, Xatirə Vəliyeva, Samirə Hüseynova, Nigar Mövsümlü və.s imzalayıblar.

# Ermənistanı etiraz dalğası bürüyüb



Ermənistanda növbəti izdihamlı etiraz aksiyası keçirilir. SİA erməni KİV-nə istinadla xəbər verir ki, bu gün Amulsar qızıl mədənində aparılan işlərin ətraf mühitə zərərli təsirinə etiraz edən ölkə vətəndaşları Yerevandakı hökumət binasının qarşısına toplaşıblar. Nazirlər Kabinetinin iclasının davam etdiyi bir vaxtda onlar öz nümayəndələrinin içəri buraxılmasını tələb ediblər. Əraziyə cəlb olunan polislərlə aksiya iştirakçıları arasında gərginlik meydana gəlib. Etirazçılar bəyan ediblər ki, hökumətin guya Livan şirkətinin ekspertləri tərəfindən bu qızıl yataqlarının ekoloji cəhətdən zərərsiz olması barədə bəyanatı tamamilə yalandır və ictimai rəyin manipulyasiya olunmasına yönəldilib. Onların sözlərinə görə, Ermənistanın İstintaq Komitəsi ekspert rəyindən yalnız özü üçün sərfəli olan maddələri açıqlayıb. Ekoloq Anna Şahnazaryan bildirib ki, ekspertizanın yekunlarına dair sənədlər düzgün tərtib olunmayıb və qızıl yataqların işlənməsinə icazə saxta məlumatlar əsasında verilib. O, müstəqil ekspertlər tərəfindən yeni tədqiqatlar aparılması tələbini irəli sürüb. Polis hökumət binasına zorla daxil olmaq istəyən aksiya iştirakçılarının qarşısını alıb və bildirib ki, bu ərazi xüsusi mühafizə olunan obyektdir. Hazırda qanun keşikçiləri ilə etirazçılar arasında qarşıdurmanın davam etdiyi bildirilir.

# "Ermənistan rəhbərliyinin cəsarəti çatırsa..."

"Ermənistan XİN başçısı Zohrab Mnatsakanyanın, eləcə də bundan öncə baş nazir Nikol Paşinyanın Xankəndində söylədiyi fikirlər əslində daxili auditoriyaya hesablansa da, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinin özünə destruktiv çalarlar gətirir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib. O bildirib ki, son bəyanatlar uzun illərdir apardıqları danışıqlar xəttini pozur: "Ermənistanın müxalif dairələri də dolayısı və ya açıq şəkildə onların danışıqlar prosesinə yanaşmasının dəyişdiyini və bunun onları pis vəziyyətə qoyduqlarını bildirirlər. Əlbəttə ki, bütün hallarda Azərbaycanın rəsmi mövqeyi hər kəsə məlumdur. Bizim fikirlərimiz daha çox ATƏT-in Minsk qrupunun həmsədrlərini ünvanlanır. Çünki hazırda onlar danışıqlar prosesinin növbəti mərhələsinin hazırlayırlar". Onun sözlərinə görə, Azərbaycan və Ermənistan XİN başçıları arasında növbəti görüşün sentyabr ayında Nyu-Yorkda baş tutacağı ehtimal olunduğu ərəfədə düşmən tərəfinin bu cür mövqe ortaya qoyması Minsk qrupu həmsədrlərini pis vəziyyətdə qoyur: "Azərbaycan tərəfi belə bir vəziyyətdə qarşı tərəflə danışıqlar aparmağın mümkünsüzlüyünü bəyan edir. Çünki onlar danışıqlar ərəfəsində mövqelərini dəyişməklə prosesin ardıcıllığını pozurlar. Belə bir şəraitdə danışıqlar prosesində iştirak etməyin əlbəttə ki heç bir mənası olmur". İ. Vəlizadə qeyd edib ki, əgər Ermənistan tərəfi hazırki mövqeyini növbəti görüşdə təsdiq edərsə, o zaman bu, onların əsil üzünü həmsədr dövlətlərə göstərmək üçün növbəti imkan ola bilər: "Bizim maraqımız ondan ibarətdir ki, düşmən ölkə hansısa mitinq və çıxışlarda deyil, ümumilikdə mövqeyini rəsmiləşdirsin. Əgər onların cəsarətləri çatırsa, bu mövqelərini danışıqlar masasında, Minsk qrupu çərçivəsində bildirsinlər". Ermənistanda daxili vəziyyətin acınacaqlı olduğunu deyən politoloq əlavə edib ki, düşmən ölkənin bəyanatları onları gülünc vəziyyətinə qoymaqdan başqa heç nəyə yaramır.

# Müasir turizm infrastrukturu Azərbaycana turist axınını gücləndirir

***Müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirir. Ölkəmizdə bu əlaqələrin bir qolu olan beynəlxalq turizm münasibətlərinin inkişafı istiqamətində də təqdirəlayiq işlər görülmüşdür. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Dünya təcrübəsi göstərir ki, turizm inkişaf etmiş regionlarda dövlət və əhali gəlirlərinin 30%-ə qədəri turizm fəaliyyəti ilə bağlıdır. Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlər bu gün ölkəmizi dünyada tanıda bilib.***





Azərbaycan xarici və yerli turistlərin istirahətinin təşkili üçün hər cür imkanlara malikdir. Yanar dağ, çoxsaylı şirin su gölləri, dağ çayları, şəlalələr, palçıq vulkanları, mineral və termal sular, müalicəvi Naftalan nefti, əlverişli iqlim, əsrarəngiz təbiət, Xəzərin qumlu çimərlikləri, tarixi, dini, zəngin mədəni abidələr hər ölkəyə nəsib olmur. Bunların hesabına Azərbaycanı dünyanın inkişaf etmiş turizm ölkələrindən birinə çevirmək mümkündür.

Turizm hər il dünyada 1,5 trilyon dollar gəlir gətirir. Bunu nəzərə alaraq, Azərbaycanda da bu sahənin inkişafına son illər xüsusi diqqət yetirilir. Sovet hakimiyyəti illərində, respublikada turizm məhdud biznes sahəsi kimi, yalnız Bakı şəhərində və Abşeronda inkişaf etsə də, Azərbaycanın ayrı-ayrı bölgələrində bu sahəyə diqqət yetirilmirdi. Bu gün isə, demək olar ki, Azərbaycanın bütün bölgələrində çoxsaylı turizm obyektləri tikilib istifadəyə verilmiş, müasir infrastruktur yaradılmışdır.



## BEYNƏLXALQ TURİZM BAZARINA İNTEQRASİYASI MİLLİ TURİZMİN RƏQABƏTƏ DAVAMLILIĞINI YÜKSƏLDİB

Turizmin inkişafına dair dövlət proqramları ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin inkişafını daha da təmin etmiş oldu. Ölkəmizdə turizmin inkişafına münbit şərait yaradıldı, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyuldu və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldi. Bu gün Azərbaycanın turizm imkanları dünyada tanıdılır. Hər bir regionun milli koloriti təbliğ olunur. Xarici dövlətlərdə Azərbaycanın müxtəlif və zəngin folkloru, mətbəxi və ənənələri ilə yaxından tanış olurlar. Ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdə Azərbaycan turistlər üçün cəlbedici məkan olaraq diqqətdədir.

Azərbaycanın son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də, buraya xaricdən istirahətə gələnlərin sayını dəfələrlə artırıb. Qonaqlar tədbirlərdə iştirak etməklə yanaşı, ölkənin müxtəlif məkanlarındakı müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur və əsrarəngiz təbiətini seyr edirlər.

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaratdı. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə "Şahdağ" Milli Parkının ərazisində yerləşən "Şahdağ" Qış-Yay Turizm Kompleksi müasir tələblərə cavab verir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, "Şahdağ" Qış-Yay Turizm Kompleksinə çəkilən avtomobil yolu genişləndirilmiş, yeni körpülər salınmış, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmiş və digər müvafiq işlər görülmüşdür. Kompleksin ərazisi ekoloji təmizliyi, flora və faunasının zənginliyi ilə seçilir. Turizm obyekti dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdədir. Turizm kompleksinin əsas hissəsi isə, dəniz səviyyəsindən 1440-1640 metr yüksəklikdəki yaylaqda yerləşir. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən biri olan "Şahdağ" Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır. Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan "Şahdağ" Qış-Yay Turizm Kompleksinə daxil olan "Qaya" və "Zirvə" mehmanxanalarının açılışı turistlərin istirahətinə geniş imkanlar açdı. "Zirvə" otelində - 40 nömrə, personal üçün 3 otaq, restoranlar, bar, kafe, pab, bilyard zalı, mağazalar, konfrans zalı, xizək avadanlıqlarının icarəsi, xizək məktəbi, tibb məntəqəsi, avtomobil dayanacağı və sair obyektlər mövcuddur. Hər il "Şahdağ" Turizm Mərkəzini minlərlə çox turist ziyarət edir. Şahdağ ideal məkan olduğundan, buraya üz tutan turistlərin sayı ilbəil durmadan artır.

## BU İL ÖLKƏMİZƏ 365 MİN ƏCNƏBİ QONAQ SƏFƏR EDİB

Ölkəmizə gələn turistlərin sayı ilbəil artır. 2019-cu ilin iyul ayında Azərbaycana 365 min əcnəbi qonaq səfər edib ki, bu da 2018-ci ilin iyul ayına nisbətdə 10,6 faiz artım deməkdir.

Dövlət Turizm Agentliyindən bildirilib ki, qonaqların üçdə birindən çoxunu, yəni 35 faizini Rusiyadan gələnlər təşkil edib. Bu da, ötən ilin eyni dövrü ilə müqayisədə 11 min və ya 10 faiz çox qonaq deməkdir.

İyul ayı üzrə ən böyük artım Gürcüstandan gələnlər arasında müşahidə olunub. Belə ki, ötən ilin eyni ayı ilə müqayisədə qonşu ölkədən Azərbaycana 12 min və ya 26 faiz daha çox xarici vətəndaş gəlib. Bununla da iyul ayında Gürcüstandan gələnlərin sayı 61 min nəfər təşkil edib.

Səudiyyə Ərəbistanından səyahət edənlərin sayı 25 faiz artaraq, rekord həddə - 29 minə çatıb.

Cari ilin yanvar-iyul aylarında Azərbaycanı 1,8 milyon xarici səyahətçi ziyarət edib ki, bu da, 2018-ci ilin eyni dövrü ilə müqayisədə 122 min və ya 7,4 faiz çoxdur.

Ən böyük artım 76 min və ya 23 faiz daha çox xarici qonaqla Gürcüstandan gələnlərin sayında müşahidə olunub.

Mərkəzi və Cənubi Asiyadan gələn səyahətçilərdə də, müvafiq olaraq, 39 faiz və 44 faiz artım qeydə alınıb. Ən yaxşı turistik bazarlar sayılan Rusiya və Türkiyədən gələnlərin sayı 4 faiz artıb. Qeyd edək ki, Türkiyə vətəndaşlarına ölkəmizə səfər üçün viza tələb olunurdu. 2019-cu il sentyabrın 1-dən Türkiyə vətəndaşları Azərbaycana vizasız səfər edə biləcəklər. Viza rejiminin ləğvi ölkələr arasında turizm səfərlərinin sayının artmasına səbəb olacaq.

Bu gün artıq "ASAN Viza" vasitəsilə turistlər Azərbaycana maneəsiz gələ bilirlər. Bu sistem vasitəsilə Azərbaycana səfər edən ölkələrin siyahısı genişlənməkdədir. Sadələşdirilmiş viza sisteminin tətbiqi mövcud turist axınına müsbət təsirini göstərib. Göründüyü kimi, dövlətin turizmə yaxından diqqəti və qayğısı bu sahənin inkişafına zəmin yaradır. Məhz dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı hesabına genişləndirilməsi nəzərdə tutulur.

**ZÜMRÜD BAYRAMOVA**

# Müxalifətdaxili intiriqalar yeni qopmalara rəvac verib

## Yaxın vaxtlarda AXCP və Müsavatdan növbəti kütləvi istefaların baş verəcəyi proqnozlaşdırılır

***Cəmiyyət tərəfindən qətiyyətlə rədd edilən dağıdıcı müxalifət hədəflərini və istiqamətini dəyişdiyini sərgiləyir. Yəni müxalifət başbilənləri bu dəfə sosial şəbəkələr vasitəsilə diqqəti özlərinə yönəltməyə çalışırlar. Amma proseslər, onu diqtə edir ki, siyasi fəaliyyətə başlayandan bu günə qədər bir-biri ilə birincilik uğrunda "amansız müharibə" aparan bu məxluqlar yenə də dinc durmayacaqlar. Yenə də bir-birini gözdən salmaq üçün ənənəvi ittiham vasitələrindən istifadə edəcəklər. Daha doğrusu, artıq bunun ilkin nəticələri baş verməkdədir. AXCP sədri Əli Kərimlinin sosial şəbəkələrin ulduzuna çevrilməsini həzm edə bilməyən Müsavat başqanı Arif Hacılı, ACP-nin keçmiş lideri Rəsul Quliyev və digərləri müxtəlif metodlardan yararlanmaqla, kimsədən zəif olmadıqlarını nümayiş etdirməyə çalışırlar. Təbii ki, bu qovğa və qarşıdurmalar sonda ciddi problemlərin yaranmasına gətirib çıxaracaq. Yəni təcrübə bunu deməyə əsas verir. Beləcə, "düşmənçilik" hissləri sıravi üzvlərə də keçir ki, nəticədə, partiyalardan kütləvi qopmalar və bir partiyadan digər partiyalara transferlər baş verir.***



### Düşmənçilik müxalifət funksionerləri arasında genişlənir

Daha bir maraqlı məqam ondan ibarətdir ki, tarixin arxivinə atılan Rəsul Quliyev, Eldar Namazov, Rüstəm İbrahimbəyov və digərləri peyda olaraq müəyyən təşəbbüslərlə və ideyalarla çıxışlar edirlər. Burada maraqlı sual yarnır: ağıllarına deyil, ağızlarına gələni deməklə gündəmə gəlməyə ümid edən arxivliklərlə Ə.Kərimli, İ.Qəmbər, Arif Hacılı əməkdaşlıq edəcəklərmi? Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev "Səs" qəzetinə açıqlamasında bildirdi ki, sözügedən şəxslər öz yaramaz maraqlarının təmin olunması üçün şeytanla da əməkdaşlıq etməkdən çəkinməzlər: "Adını çəkdiyiniz insanlar şeytanla da əməkdaşlıq edər, nəinki arxivdəkilərlə. Məsələn, Eldar Namazov gəlib desə ki, filankəs pul təklif edir, 50-50-yə bölüb işimizə başlayaq, Kərimli iki əlini birdən qaldırıb razılıq verər. Bunlarda o qürur, o təpər hardadır ki, mənəvi məsələlərə diqqət yetirsinlər? Liderini satan adamlardan nə gözləyirsiniz? Təbii, bu əməkdaşlıq mümkündür. Sadəcə, məsələ burasındadır, bunların beşi birinə dəymir, biri beşinə. Yəni əməkdaşlıq eləsələr də eyni gündədirlər, eləməsələr də".

Araşdırmalara və proseslərə əsasən, demək olar ki, hazırkı mərhələdə daha cox AXCP-Müsavat qarşıdurması diqqəti cəlb edir. Xüsusilə də, Müsavatın "Milli Şura" deyilən qondarma qurumdan çıxmasından sonra iki partiya arasında münasibətlərin gərginləşdiyi müşahidə olunur. ADP sədri Sərdar Cəlaloğlu iddia edir ki, müxalifətin ciddi iflasa uğramasının başlıca günahkarı AXCP və Müsavatdır. "Bu partiyaların bir araya gələ bilməməsi həmişə birlik istəklərini reallaşdırmağa imkan verməyib. Vaxtilə "Demkonqres"in, "Azadlıq" siyasi blokunun, "SİDSUH"un və digər qurumların dağılmasında da onlar rol oynayıb. AXCP ilə Müsavatın qarşılıqlı ittihamları və bir-birini qəbul etməməsi həmişə müxalifət düşərgəsində ciddi parçalayıcı amil olub" deyə S.Cəlaloğlu bildirib.

### Arif Hacılı dönəmi bitir

Son vaxtlar, xüsusilə də, Müsavatın növbəti qurultaya hazırlaşdığı bir vaxtda A.Hacılıya qarşı partiyadaxili qruplaşma fəaliyyətlərini bir qədər də genişləndiriblər. Bu isə, A.Hacılıya ciddi problemlər deməkdir. Çünki, keçmiş başqan İsa Qəmbər yenidən əvvəlki postuna qayıtmaq niyyətindədir və bunun üçün də çalışır. Ötən həftə partiyadan istefalar baş verməsi bir növ iddialı İ.Qəmbərin planlarına daxil olan və A.Hacılıya yerini göstərmək üçün lazım olan məsələlərdəndir. Çoxları hələ də baş verən istefaların səbəbini A.Hacılının başqanlığa yaramaması ilə əlaqələndirsələr də, əslində, başlıca səbəb yığılıb qalan problemlərin yeni dönəmdə qabarıq şəkildə üzə çıxması ilə bağlıdır. Çox maraqlıdır ki, A.Hacılı Müsavatdaxili vəziyyətə özünə məxsus şəkildə don geyindirməyə uğursuz cəhdlər göstərir. Bildirir ki, baş verənlər fikir plüralizmi və demokratik dəyişikliklərin nəticəsidir. Müsavat başqanının müavini Osman Kazımov, A.Hacılının qardaşı Mustafa Hacıbəyli, Müsavatın icra aparatının rəhbəri Gülağa Aslanlı və digərləri utanıbçəkinmədən A.Hacılıya haqq qazandırır, istefaları təbii proseslər kimi qiymətləndirirlər. Keçmiş müsavatçı Qubad İbadoğlu isə iddia edir ki, Müsavatın dağılmasının günahkarı A.Hacılıdır: "Müsavat partiyası bir qrupun, bir ailənin nəzarətindədir. Partiyanı idarə edənlər məsuliyyəti dərk etmədən, partiyanın xəttində, partiyanın siyasi kursunda öz maraqları çərçivəsində etdikləri dəyişiklik partiyanın zəifləməsinə, partiyanın boşalmasına və nüfuzunun itirilməsinə gətirib çıxardı. İndiki şərtlərlə partiyanı bərpa etmək, yenidən canlandırmaq çətindir. Bunun üçün çox böyük resurslar tələb olunur, bu isə, Müsavatda yox dərəcəsindədir. Bütövlükdə, Müsavat partiyasında bir qrup adam qalıb. Onlar da Müsavat partiyasının başqanını tərifləməklə məşğuldurlar". Söz yox ki, İ.Qəmbərin A.Hacılıdan imtina etməsi, yeni imkan yaranacağı təqdirdə, başqanlığa qayıtması kimi başa düşülür. Bu fikri möhkəmləndirən məqamlardan biri də, son vaxtlar İ.Qəmbərin önə cıxaraq "Milli-Strateji Düşüncə Mərkəzi" adından bəyanatlar verməsi və populist fikirlər səsləndirməsidir. Ona görə də, demək olar ki, İ.Qəmbər Müsavat başqanlığına qayıtmaq fikrindədir. Bu, baş verməyəcəyi təqdirdə isə, o, Müsavatdan imtina edə bilər. Çünki Müsavatda qalması onun əl-qolunu bağlayır. Həm də baş verən qalmaqallı hadisələri və qopmaları aradan qaldıra bilmədiyindən onun hədəflərini alt-üst edir. Yəni qınaq obyekti yaradır. Bütün bunlar, onu deməyə əsas verir ki, A.Hacılı Müsavat daxilində mövqelərini tamamilə itirmək üzrədir. Bu isə partiyanın növbəti qurultayında onun üçün gözlənilməz sürprizlər vəd edə bilər. Ən azı, başqanlıqdan getməsi ilə nəticələnər. Bununla da, onun siyasətdən birdəfəlik getməsi demək olacaq.

***İ.ƏLİYEV***

# "Söyüş müxalifəti" fiaskoya məhkumdur...

***Avropadakı Orduxan Teymurxan, Vidadi İsgəndərli, Tural Sadıqlı, Qurban Məmmədov, Məhəmməd Mirzəli, Rəfael Piriyev və başqaları kimi "söyüş müxalifəti"nin tör-töküntüləri öz davranışları ilə, sözün həqiqi mənasında, insanlarda ikrah hissi doğururlar. Onlar siyasi fəaliyyətlərində indiyədək görünməmiş həyasızlığa əl atırlar, hətta o qədər harınlayıblar ki, dövlətimizin və xalqımızın milli dəyərlərinə, atributu olan Azərbaycan Prezidentinə, ailəsinə də dil uzadırlar. Səbəb də, əlbəttə ki, aydındır.***

Ona görə ki, bu xainlər ölkəmizi qətiyyətlə irəli aparan Prezident İlham Əliyevin uğurlarını qəbul etmək istəmirlər. Təbii ki, Azərbaycan Prezidentini və onun ailəsini təhqir etmək kimi rəzil bir hərəkəti xalqımız qətiyyətlə pisləyir və onların cavabını sərt şəkildə verir. Ancaq bütün hallarda, həm erməni lobbisi, həm də ondan qaynaqla-





nan daxili və xarici düşmənlərimiz ölkəmizi, o cümlədən, dövlətimizin başçısını öz qətiyyətindən döndərə bilməzlər.

Sirr deyil ki, bu gün Prezident İlham Əliyev bütün siyasi fəaliyyətini cəmiyyətin problemləri ilə məşğul olmağa yönəldib. Ona görə ki, məhz iqtisadi cəhətdən inkişaf etmiş, vətəndaşının sosial problemləri həll edilən və ən nəhayət, siyasi və ictimai sabitliyi dönməz xarakter alan bir ölkə xarici təzyiqlərə, daxildəki antimilli ünsürlərin hücumlarına mətinliklə sinə gərə bilər. Dünyanın aparıcı güc mərkəzləri ilə, həmçinin, qonşu dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan sıx əməkdaşlıq əlaqələri quran Azərbaycan indi bir sıra regional layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan, məhz bu önəmli amillərə görə istənilən təzyiqlər qarşısında inamla dayanır. Eyni zamanda, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir; ölkəmizin iqtisadi gələcəyinin qarantı olan qaz layihələri-TANAP, TAP, əfsanəvi "Cənub Qaz Dəhlizi" xəyaldan gerçəkliyə qovuşur. Ölkəmizi sevməyən xarici dairələrin digər narahatlığı, məhz bu məqamdadır.

Bir müddətdir ki, "Trensparency İnternational", "Amnistey İnternational", OCCRP və digər bu kimi ölkəmizə qarşı ikili standartlar sərgiləyən qurumları hərəkətə gətirən səbəbin də kökü bu amildədir. İstər xarici anti-Azərbaycan dairələr, istərsə də daxildəki "5-ci kolon" çalışır ki, Azərbaycan hər cür böhtanla beynəlxalq qınaq obyektinə çevrilsin, ictimai narazılıq artsın, ölkədə xaos vəziyyəti yaransın. Bundan istifadə edən maraqlı çevrələr isə, Azərbaycanda özlərinə gərəkli olan ssenariləri başlatsınlar.

Hətta ölkəmizlə bağlı ən pis ssenari dağıdıcı müxalifətə də hava və su kimi lazımdır. Uzunömürlü müxalifətçilik Əli Kərimlini və İsa Qəmbəri günbəgün zəiflədib meydandan çıxmaq qorxusu altında saxlayır. Odur ki, güclənən Azərbaycanın əleyhinə formalaşacaq üçbucağın bir küncündə də, məhz onlar dayanırlar. Təbii ki, Avropada məskunlaşmış və rəzalətin ən uca nöqtəsinə yüksəlmiş orduxanlar, vidadilər, turallar erməni lobbisinin himayəsinə sığınmış ləyaqətsizlərdir. Hətta Orduxan kimilər Xocalı soyqırımı ərəfəsində erməniləri az qala mələk donunda göstərməyə, onların vandalizm hərəkətlərinə bəraət qazandırmağa çalışdılar. Məhz, erməni xislətliləri müdafiə edən dağıdıcı müxalifət hansı haqla xalqı öz yanında görmək istəyir?

Axı, onlar Azərbaycan xalqının aşağılandığı bir məqamda xalqın və dövlətin yanında olmaqdansa, Avropadakı ermənipərəst mühacirlərlə bir sırada dayanırlar. Əslində, bu, dolayısı ilə saxta erməni soyqırımı iddiasına haqq qazandıran, Azərbaycan torpaqlarına riyakarcasına iddia edən, hətta onun 20 faizini işğalda saxlayan Ermənistana ideoloji dəstək verən vidadilərin və orduxanların sırasının antimilli müxalifətçilərin hesabına genişlənməsi deməkdir.

Bu gün xarici ölkələrdəki anti-Azərbaycan ünsürlər ölkəmizin uğurlarına ona görə qısqanclıqla yanaşırlar ki, əxlaq sarıdan kasaddırlar, milli iradələri zəifdir, xaricdən gələn maliyyə dəstəyinə görə vətənlərini, hətta ən yaxınlarını satmaqla məşğuldurlar. Bu "iaşə müxalifəti"nin bir məqsədi var ki, o da Azərbaycanın iqtisadi və sosial inkişafına qara yaxmaqla erməni lobbisinin əlinə oynamaq. Buna da, heç şübhəsiz ki, Azərbaycan xalqı imkan verməyəcək...

***"Səs" analtik qrub***

# İnsan hüquqlarının təkamülü

***Bəşər tarixi boyu cəmiyyətdə insan hüquqlarının yeri və rolu məsələsi dövrünün müdrik insanlarının - ziyalıların, alimlərin, tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu da, ondan xəbər verir ki, insan hüquqları ideyası, onun mahiyyəti və məzmunu kifayət qədər dərin tarixi köklərə malikdir. İstənilən tarixi dövrdə cəmiyyət üzvləri müəyyən statuslar və ədalət uğrunda mübarizə aparmışlar. Bundan başqa, insanların biri-birilərinə münasibətlərində, insan- dövlət münasibətlərində davranış qaydalarının tənzimlənməsi cəmiyyətin inkişafının və sabitliyinin mühüm şərti kimi çıxış edir. Bu reallıq tarixi inkişafın, demək olar ki, bütün mərhələlərində dərk edilmişdir. Bu baxımdan, əminliklə qeyd etmək olar ki, insan hüquq və azadlıqları problemi bütün tarixi dövrlərdə ciddi aktuallıq kəsb etmişdir.***

D.Qənbərov yazır: "İnsan sivilizasiyasının fundamental konsepsiyalarından, biri məhz insan hüquqlarıdır. İnsan hüquqları cəmiyyətin inkişafının mühüm istiqamətlərindən biri rolunda çıxış etmişdir və bu, bu gün də davam etməkdədir. İnsan hüquqlarının mahiyyətinə və genezisinə dair çoxsaylı yanaşmaları iki əsas qrupda birləşdirmək mümkündür. Birinci yanaşmaya görə, insan hüquqları öz başlanğıcını təbiətdən götürmüşdür. İnsan dünyaya gəlməklə, artıq bu hüquqlara malik olur. Dövlətin və cəmiyyətin vəzifəsi bu hüquqları qorumaqdan, onların pozulmasının qarşısını almaqdan ibarətdir. Təbii ki, belə yanaşma, əsasən, demokratik cəmiyyətlər və dövlətlər üçün səciyyəvidir. Digər yanaşmada ifadə olunan məqam, ondan ibarətdir ki, insan öz hüquqlarını cəmiyyətdən və dövbtlətdən götürür. Təhlillərimizə əsasən, qeyd edə bilərik ki, belə yanaşma bir qayda olaraq, totalitar cəmiyyətlər və dövlətlər üçün səciyyəvidir. Qeyd etmək lazımdır ki, dünyanın əksər ölkələrində insan hüquqları ideyasının özü ideoloji qarşıdurmalar arenası kimi nəzərdən keçirilmişdir. Bu, hətta uzun illər boyunca davam etmişdir. Buna baxmayaraq, hazırda dünya ölkələrinin, demək olar ki, hamısında insan hüquqlarının demokratik cəmiyyət quruculuğunun başlıca şərtini təşkil etdiyi qəbul olunmaqdadır.

İnsan hüquqlarının genezisi ümumdünya tarixinin inkişafına əhəmiyyətli təsir etmişdir. İnsan hüquqları probleminə tarixin bütün dövrlərində ciddi diqqətin ayrıldığı bunu təsdiq edir.

İnsan hüquqları hər bir fərd üçün konkret, qanunla müəyyənləşdirilmiş sahədə təminatlı imkanlar və ya davranış qaydalarıdır. Yəni ümumi şəkildə qeyd edə bilərik ki, insan hüquqları fərdlər üçün fəaliyyət imkanlarını şərtləndirməklə yanaşı, həm də onların davranışlarını tənzimləyir."

Müəllifin fikrincə, insan hüquqları anlayışının mahiyyətinin tam şəkildə açılması və universal olaraq, hamı tərəfindən qəbul olunması hüquq və digər yaxın elmlərin ən ciddi problemlərindəndir. Müasir ədəbiyyatları nəzərdən keçirən zaman insan hüquqları anlayışının mahiyyətinə dair olduqca müxtəlif yanaşmalara rast gəlmək mümkündür. Bu yanaşmalar arasında müəyyən oxşarlıq olsa da, bir sıra məqamlarma görə fərqlənirlər. Əlavə olaraq, qeyd edək ki, bu sahədə terminoloji müxtəliflik də mövcuddur. Belə ki, "insan hüquqları" anlayışı ilə yanaşı, "şəxsiyyət hüququ", "şəxsin hüququ", "əsas hüquqlar", "fərdi hüquqlar", "insan və vətəndaş hüquqları", "subyektiv hüquqlar", "əsas hüquqlar", "hər kəsin hüququ" və s. kimi anlayışlar geniş işlədilir. Tədqiqatlarımıza əsasən qeyd edə bilərik ki, "insan hüquqları" anlayışı hüquqi fenomen olmaqla yanaşı, digər müstəvilərdə də kifayət qədər geniş işlədilir. Bunun özü də insan hüquqları anlayışının mahiyyətinə dair universal yanaşmanın ortaya qoyulmasını çətinləşdirir. İnsan hüquqlarını digər qarışıq hüquqi anlayışlardan fərqləndirməyi çətinləşdirən məqamlardan biri rolunda da, məhz bu, çıxış edir. İnsan hüquqlarının mahiyyətini izah edən zaman mütləq bu hüquqların qorunmasının dəqiq mexanizmləri haqqında təsvvürlərin olması da vacibdir. Nəzərə almaq lazımdır ki, hazırkı məqamda hüquqi ədəbiyyatda insan hüquqları haqqında kompleks şəkildə iki yanaşma mövcuddur. Bir qrup müəllif, hüquqlarda əsasən, ictimai vəzifələri başa düşürlər. Digər qrup isə, şəxsi başlanğıcı önə çəkməyə çalışırlar. Qeyd edə bilərik ki, üçüncü yanaşma tərzi də mövcuddur. Bu yanaşma öncəki iki yanaşmanın hər birinin müəyyən elementlərini özündə ehtiva edir. Belə ki, üçüncü qrup yanaşma əsas diqqəti müxtəlif hüquq növlərinin müxtəlif cinsli olmasını əsaslandırmağa çalışır. Bu səbəbdən də, hər iki qrupun mövqelərini uzlaşdırır. Həqiqətən də, hüquqların bir_qismi_-şəxsi imkanlarının nəticəsidir.

İnsan hüquqları, əsasən, insan-dövlət münasibətlərini tənzimləyən müəyyən dəyərlər dəstidir. Hüquqlar vətəndaşlığından, dini etiqadından və sosial statusundan asılı olmayaraq, hər bir fərdə məxsusdur. İnsan hüquqları təbii mənşəyə malikdir və hər kəsə doğulduğu gündən məxsusdur. İnsan hüquqları ayrılmazdır. Monoqrafiyada insan hüquqlarının təsnifatına geniş yer verilmişdir. İnsan hüquqlarının müəyyən əlamətlərinə görə qruplaşdırılması məsələsində də ciddi fikir ayrılıqları mövcuddur. Bununla bağlı tədqiqatçıların fikirlərinin təhlilinə də müəyyən yer verilmişdir.

D.Qənbərov daha sonra yazır: "Müasir cəmiyyətlərdə, dövlətlərdə insan hüquqları pozuntuları baş verdiyi halda, onların müdafiəsi mexanizmləri işə düşür. Bu mexanizmlər də, öz növbəsində, hüquqi və siyasi xarakterli ola bilərlər. İnsan hüquqlarının qorunması, üçün maariflendirici və ictimai aksiyalar həyata keçirilir. İnsan huquqları və onların qorunması problemi müasir mərhələdə bir dövlətin sərhədlərini aşmışdır. Yəni insan hüquqlarının qorunması artıq bir dövlətin deyil, beynəlxalq əhəmiyyətli bir məsələdir. İnsan hüquqlarının qorunması ilə qəbul olunmuş beynəlxalq Konvensiyalara qoşulmaqla, dünya dövlətləri bu istiqamətdə öz üzərlərinə ciddi öhdəliklər götürməli olmuşlar. Müvafiq olaraq, insan hüquqlarına hörmət və onların qorunması mexanizmlərinə beynəlxalq nəzarət mövcud olmaqdadır. Qeyd edək ki, monoqrafiyada insan hüquqlarının qorunmasının beynəlxalq hüquqi əsasları da nəzərdən keçirilmişdir. Təbii ki, burada insan davranışlarını da unutmaq olmaz. Yəni hüquqlarının böyük əksəriyyəti, həm də insan davranışlarının nəticəsidir. Elə hüquqlar da vardır ki, onlar insandan hər hansı bir konkret davranış tələb etmir. Məsələn, yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, fikir azadlığı hüququ bu qəbildən olan hüquqlardandır. Yəni insanın davranışının nəticəsindən asılı olmayaraq, onun bu qeyd etdiyimiz hüquqları mövcuddur. Bu hüquqlar, sadəcə olaraq, müəyyən vəziyyətlərdə tələb etmək imkanlarını ifadə edir. Elə hüquqlar da vardır ki, insan onları sərbəst şəkildə reallaşdıra bilər. Məsələn, belə hüquqlar kateqoriyasına şəxsi və siyası hüquqları aid etmək olar. Sözsüz ki, başqa bir hüquqların təmin olunması üçün dövlətin dəstəyi və öhdəlikləri tələb olunur. Məsələn, insanın sosial hüquqlarının reallaşdırılması və qorunması dövlətin dəstəyi olmadan səmərəli ola bilməz. Beləliklə, göründüyü kimi, insan hüquqları problemi olduqca mürəkkəb bir kateqoriyadır. İnsan hüquqlarının mahiyyətini və onun digər məqamlarını səciyyələndirərkən, bu səciyyələndirmənin kifayət qədər əhatəli olmasını nəzərdə saxlamaq lazımdır. Belə ki, o, insan hüquqlarının təbiətini açmaqla yanaşı, hər şeydən öncə, həm də vahid hüquq sisteminə daxil olan bütün hüquq növlərinin xüsusiyyətlərini ifadə etməlidir. Bu zaman həm də bütün hüquq subyektlərinin rolunu və iştirakını, bu hüquqların mövcudluğunu və reallaşdırılmasını nəzərə almaq lazımdır."

Müəllif qənaətə gəlir: Beləliklə, insan hüquqları anlayışının mahiyyəti ətrafında müzakirələrə başlamazdan öncə, vurğulamaq lazımdır ki, insan hüquq və azadlıqları onun istənilən dövlət təşkilatı, cəmiyyətlərdə vəziyyətini ifadə edir və müəyyənləşdirir. Demokratik dövlətlərdə və ya cəmiyyətlərdə insanın şəxsi hüquqları onların baza əsasını təşkil edir. Bu səbəbdən, müasir dövlətlərin, demək olar ki, hamısının konstitusiyalarında insan hüquqları mərkəzi yerə malikdir və xüsusi status kəsb edir. Hüquq sistemində xüsusi yerə malik olmaqla, insanın konstitusiya hüquqları insanın və vətəndaşın cəmiyyətdəki və dövlətdəki faktiki yerini müəyyən edir, İnsan özünün cəmiyyətdəki yerinə uyğun olaraq davranır və digərilərinin də müvafiq formada davranmalarını şərtləndirir. Bu prosesin dövlət tərəfindən tənzimlənməsi məsələsi isə dövlətin konstitusiya öhdəlikləri kimi nəzərdən keçirilir. Müasir dünya dövlətlərində həyata keçirilən konustitusiya islahatları da, əsasən, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sisteminin və mexanizmlərinin daha da təkmilləşdirilməsi motivləri ilə bağlı olur.

İnsan hüquqlarının mahiyyətinə dair, ümumi şəkildə, ən bəsit yanaşma forması ondan ibarətdir ki, hüquqi aktlardan asılı olmayaraq, hər bir fərd, məhz insan olduğuna görə müəyyən hüquqlara malikdir. İnsan hüquq və azadlıqlarının dünyanın bütün ölkələrində insan həyatının mükəmməlliyini müəyyənləşdirir. İnsanın əsas hüquqlarını millətin mədəni dəyərlərinin ayrılmaz hissəsi rolunda çıxış etməklə, bəşəriyyətin mənəvi-hüquqi ideallarının ali ifadəsi kimi qəbul olunur. İnsanın əsas hüquq və azadlıqlarının gözlənilmədiyi cəmiyyətlərdə həyati vacib tələbatların ifadə olunmasından və şəxsiyyətin inkişaf imkanlarının mövcudluğundan danışmaq üçün əsas olmaz.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 16 avqust

# "Diriliş Ertoğrulun" baş qəhrəmanının yeni imici tənqid edildi



Hamının sevə-sevə seyr etdiyi "Diriliş Ertoğrul" filmindəki Ertoğrul rolunun ifaçısı Engin Altan Düzyatanın yeni imici pərəstişkarlarını qəzəbləndirib.

Milli.Az ölkə.az-a istinadən bildirir ki, saç və saqqalını qırxdıran məşhur aktyorun bu addımı sevənlərinin sərt tənqidiylə qarşılanıb.

Onlar sosial şəbəkələrdə Düzyatanın fotolarının altına "Yıkılış Ertoğrul", "Onun bu imici bizi xəyal qırıqlığına uğratdı" kimi şərhlər yazıblar.

# Kök müğənni "Calvin Klein"in siması oldu



Amerikalı müğənni Bet Ditto "Calvin Klein" brendinin reklam kampaniyasının siması oldu.

38 yaşlı Ditto markanın payız-qış kolleksiyasındakı "Seksuallıq nə deməkdir?" şüarı altında çıxan alt paltarı xəttini təqdim edib.

Şəbəkədə peyda olan şəkillərdən birində müğənni qara krujevalı büstqalterdə divanda uzanaraq, digərində isə ağ - qara büstqalterdə əlləri ilə başını tutaraq poz verib. Fotoların müəllifi tanınmış feşn-fotoqraf Deniel Cekson olub. Avqustun əvvəllərində məlum olmuşdu ki, "Calvin Klein"in yeni kampaniyasında fələstin əsilli Amerika supermodeli Bella Hadid və Britaniya supermodeli Naomi Kempbell də iştirak edib. Kanadalı operator Bardi Zeynalinin çəkdiyi videoda modellər müxtəlif dekorasiyalar fonunda növbə ilə müxtəlif alt paltarı nümayiş etdirirlər.

# Navas La Liqada klubunu dəyişdi




İspaniyanın "Osasuna" klubu heyətini yeni futbolçu ilə gücləndirib. Sport24.az xəbər verir ki, sözügedən klub La Liqanın digər təmsilçisi "Real Sosyedad"ın müdafiəçisi Raul Navası heyətinə qatıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. 31 yaşlı futbolçu 1 illik icarəyə götürülüb. Mövsümün sonunda "Osasuna" 250 min avro ödəməklə onun transfer hüquqlarına da yiyələnəcək. "Sevilya"nın yetirməsi olan Navas, sonralar "Valyadolid", "Selta" və "Eybar"da da çıxış edib. O, 2014-cü ildən "Real Sosyedad"ın uğurları üçün çalışırdı.

# Tanınmış ağırçəkili model ana olacaq



Dünyanın tanınmış ağırçəkili modeli Eşli Qrem ana olacaq. 31 yaşlı model bu barədə İnstaqram səhifəsində yazıb: "9 il əvvəl mən həyatımın eşqinin qadını oldum. Bu, ən çox sevdiyim adamla ən gözəl həyat səyahətim idi. Bu gün biz özümüzü ailəmizin genişlənəcəyi səbəbindən daha xoşbəxt hiss edirik".

8,7 milyon izləyicisi olan Eşliyə bu postundan sonra minlərlə təbrik yazılıb.

# Fransa klubundan 25 milyon avroluq transfer



Fransanın "Olimpik" (Lion) klubu heyətini yeni futbolçu ilə gücləndirib. Sport24.az xəbər verir ki, Liqa 1 təmsilçisi Fransanın digər klubu "Anje"nin yarımmüdafiəçisi Ceff Ren-Adelaidi transfer edib. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. 21 yaşlı futbolçu ilə 5 illik müqavilə imzalanıb. Lionlular bu keçidə görə "Anje"yə 25 milyon avro ödəyiblər. Bonuslarla bu məbləğin 27,5 milyon avroya çatması nəzərdə tutulub. "Anje" bu futbolçunun gələcəkdəki satışından da 15 faiz gəlir əldə edəcək.

2015-2018-ci illər aralığında London "Arsenal"ına məxsus olsa da, bu komandada heç bir oyun keçirməyən Ren-Adelaid 2018-ci ildən "Anje"nin uğurları üçün çalışırdı.

# Millimizin müdafiəçisi "Beşiktaş"dan 3-cü liqa klubuna keçdi



Türkiyənin "Beşiktaş" klubu Azərbaycanın U-17 və U-19 millilərində oynamış Mətin Gülərlə yolları ayırıb. Sport24.az xəbər verir ki, xəbər verir ki, İstanbul təmsilçisinin yetirməsi karyerasını III Liqa klubu "Darıca Gənclərbirliyi"ndə davam etdirəcək.18 yaşlı müdafiəçinin keçidi aşağı liqa təmsilçisi təzminatsız başa gəlib. Xatırladaq ki, Mətin U-17 millisində 3 oyuna 1 qol vurub. Gənc futbolçu U-19 yığmasında 8 oyun keçirib.

# "Qarabağ"ın Avroliqadakı rəqibi dəqiqləşdi



Futbol üzrə UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində Kiprin APOEL klubuna uduzaraq (0:2, ilk oyun 2:1) mübarizəni dayandıran Azərbaycan çempionu "Qarabağ" mübarizəni Avropa Liqasının pley-off mərhələsində davam etdirəcək. Sport24.az xəbər verir ki, artıq Ağdam klubunun Avroliqadakı rəqibi də müəyyənləşib. Qurban Qurbanovun çalışdırdığı komanda bu turnirin qrup mərhələsinə vəsiqə uğrunda Şimali İrlandiyanın "Linfild" klubu ilə mübarizə aparacaq.

Sözügedən komanda Avroliqanın 3-cü təsnifat mərhələsində "Sutyeska"nı (Monteneqro) mübarizədən kənarlaşdırıb. Səfərdə baş tutan ilk oyunda 2:1 üstün olan Şimali İrlandiya klubu, doğma meydanda da 3:2 hesablı qələbəyə sevinib və Ağdam təmsilçisinə rəqib olub. Avroliqada pley-off mərhələsinin oyunları avqustun 22-də və 29-da keçiriləcək. "Qarabağ"ın ilk matçı səfərdə olacaq.

# "Qalatasaray" "Roma"dan futbolçu alır



Türkiyənin "Qalatasaray" klubu heyətini yeni futbolçu ilə gücləndirməyə hazırlaşır. "sarı-qırmızılar" "Roma"dan Stiven Nzonzini transfer etməyə yaxındır. Bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Xəbərdə, "Qalatasaray"ın 30 yaşlı yarımmüdafiəçini 1 illik icarəyə götürəcəyi bildirilir. Artıq İstanbul klubu rəsmi saytı vasitəsilə bu transferlə bağlı "Roma" ilə danışıqlara start verildiyini bəyan edib. Nzonzi 2018-ci ilin avqustunda, 27 milyon avroya "Sevilya"dan "Roma"ya keçmişdi.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600